UNİKAL

№45 (2275) 28 noyabr 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.az



# Bakıdakı yanğınlarda korrupsiya izləri...



Səh.8

## Rəşad Nəbiyev: "Zəngəzur dəhlizi dayanıqlı əlaqə yaradacaq"

*Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Forumunda Mərkəzi Asiya, Cənubi Qafqaz və Qara Dəniz Regionu üzrə Əhatəli Əlaqələndirmə Gündəliyi panelində iştirak edib. Bu barədə R.Nəbiyev öz sosial şəbəkə hesabında paylaşım edib. "Böyük dəhliz layihələrində əsas maneələrin sərhəd standartlarının fərqli olması, rəqəmsallaşmanın yetərsizliyi və infrastruktur çatışmazlıqları olduğunu qeyd etdik. Azərbaycanın strateji mövqeyi, sabitliyi və iqtisadi diversifikasiyası ilə etibarlı və cəlbedici investisiya məkanı olduğunu vurğuladıq. Həmçinin Zəngəzur dəhlizinin Avropa ilə Mərkəzi Asiya arasında dayanıqlı, sürətli və sərfəli əlaqə...*

Səh.10

## "Həkim çatışmazlığı ən çox bölgələrdə özünü büruzə verməkdədir"



*Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Unikal"a müsahibə verib. O, hansı şəxslərin aylıq 16 manat icbari tibbi sığorta haqqı ödəyəcəyindən, regionlarda həkim çatışmazlığının necə aradan qaldırıla biləcəyindən və onkoloji xəstəliklərin nə zaman icbari tibbi sığorta...*

Səh.4

## Azərbaycanla Ermənistan arasında yekun sülh üçün münbit şərait yaradılır



*Dünən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən sammitinin yekun bəyannaməsi qəbul edilib. "Unikal" xarici mediaya istinadən xəbər verir ki, bəyannamədə KTMT ölkələri Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin tezliklə...*

Səh.9

## Vətəndaşların bank məsələləri ilə bağlı hüquqi savadı artırılmalıdır



*Son günlər bankların kredit öhdəliyi götürən və onlara zamin duran şəxslərin əmək haqqının 50 faizdən çox hissəsini kredit borcuna tutduğu barədə iddialar səslənir. Bir sıra hallarda banklardan kredit götürən şəxslər müxtəlif səbəblərdən kredit borclarını qaytara bilmirlər. Bu zaman onlar üçün zamin duran şəxslərə xəbərdarlıq edilir.*

Səh.11

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:36 PM Page 2



# Tacir Şahmalıoğlu ilə Əminə Şirin arasında qalmaqal: "Bunu etsən sənətdən gedərəm"



***Müğənni Tacir Şahmalıoğlu ilə Əminə Şirin arasında qalmaqal yaşanıb.***

İfaçılar arasındakı mübahisəyə "Ölüm haqdır" mahnısı olub. Belə ki, Əminə mahnını pulla satın aldığını, sonra isə T.Şahmalıoğlu onu oxuduğunu deyib. Əminə isə həmkarını hədələyərək, mahnını yutubdan sildirəcəyini deyib.

"Əminə Şirini tanımıram. Onu tanımaq istəyirəm. Mənimlə bir yerdə olmayıb, səmimiyyətimi harda görüb? Onun mənim ifamı sildirməyə gücü çata bilməz. Onu sildirsə, sənətdən gedərəm" deyə, Tacir əlavə edib. Verilişə zəng edən Əminə "Mahnının hüquqları rəsmi şəkildə məndədir. Onun şəxsiyyətinə və sənətinə söz deməyə haqqım yoxdur. Qaldı ki, mənə dərs deməyə... Mən Vaqif Gərayzadə məktəbi keçmişəm, mən kimsə söz öyrədərəm, kimsə mənə yoxdur. Nə vaxta kimi haqqıma girəcəksiniz? Mahnının haqqını vermədiniz, belini sındırmısınız. Deyirsiz, qabağıma qoyub söz öyrədərəm. Bilirsiz mənə kimlər söz öyrədib?" sözlərini əlavə edib.

# "Bunu yaşayıb oxumuşam" - Ayandan etiraf



***Müğənni Ayan Babakişiyeva son günlər gündəm olan mahnısından danışıb.***

Axşam.az xəbər verir ki, "Gün ortası" verilişində danışan ifaçı etiraflar edib. O bildirib ki, mahnıdakı sözləri yaşadığı üçün oxuyub: "Burada o demək deyil ki, sırf bir qadın bir evli kişini sevir. Və ya əksinə. "Sevməməliydim" - artıq mənə aid deyilsən deyir. Burada nakam eşqdən bəhs edilir. Bir yaşanmışlıqlar, bir də peşmançılıq var. Bir ifaçı bunu yaşamasa oxuya bilməz. Mən də yaşayıb oxumuşam. Ona görə də sevildi. Elə yara var ki, sağalmır. Amma toxunma, qanayar. İnsan var ki, uzaq tutursan, sevirsən. Bilirsən ki, qucaqlasan sənə ziyan gələcək. Mənim tək sevdiyim övladımdır. Məni kövrəldən övladım ola bilər. Övlad elə varlıqdır ki, sənə gələn sözlər düşünürsən ona da gəlir. Toxunmayın. Yaşadıqlarımı danmamışam".

# Vüsalə Əlizadənin verilişi yarıda kəsildi - Xəzər TV-dən açıqlama



***Xəzər TV efirə gedən "İncə səhər" verilişinin yarımçıq dayandırılması ilə bağlı açıqlama yayıb.***

"Unikal" xəbər verir ki, açıqlamada ötən gün saat 10:38-də "İncə Səhər" verilişinin yayımı zamanı texniki problem yarandığı bildirilib.

Qeyd olunub ki, sözügedən verilişin bu həftə efirə getmiş bütün buraxılışları öncədən çəkilib: "Verilişin bugünkü buraxılışı da əvvəlki günlərdə çəkilib, anonsu uğurla yayımlanıb və həmin mərhələdə heç bir nasazlıq qeydə alınmayıb. Bu gün yayımlanacaq buraxılış 2 fayldan ibarət idi. 1-ci fayl heç bir problem olmadan efirə verilib. Reklam buraxılışına ayrılıb və 2-ci faylın yayımlanması zamanı texniki problem yaranıb. Fayl "playout" sistemi tərəfindən oxunmadığı üçün efirə çıxmayıb. Tətbiqi proqram təminatında kritik xəta baş verib, bu isə əsas efir serverində cihazsəviyyəli nasazlıq yaradıb, nəticədə də verilişin tam yayımı mümkün olmayıb".

Xəzər TV tərəfindən yaranmış narahatlığı anlayışla qarşıladıqları və efiri diqqətlə izlədikləri üçün izləyicilərə minnətdarlıq edilib.

# "Ayda 2 dəfə süd vannası qəbul edirəm" - Mənzurə Musayeva



***Müğənni Mənzurə Musayevanın "Rəngarəng" verilişində səsləndirdiyi açıqlama sosial şəbəkələrdə böyük maraq doğurub.***

Sənətçi haqqında səsləndirilən "dəvə südü ilə çimir" iddiasını cavablandırıb.

O, ayda iki dəfə süd vannası qəbul etdiyini etiraf edib: "Dəvə südü ilə yox, adi süd ilə edirəm. Üç kiloluk balonu cakkuzinin içinə tökürsən, sonra rahat şəkildə uzanıb istirahət edirsən."

Müğənninin bu etirafı izləyicilər arasında geniş müzakirələrə səbəb olub. Sosial mediada mövzu ilə bağlı müxtəlif rəylər yazılıb.

# "Mənim üçün müqəddəs insan" - Şəfəq Novruz erməni ilə



***Tanınmış azərbaycanlı stilist-vizajist, Xalq artisti Ramiz Novruzun qızı Şəfəq Novruzun paylaşımı müzakirələrə səbəb olub.***

"Unikal" xəbər verir ki, stilist, Georgi Kot ilə birlikdə çəkilmiş fotosunu izləyiciləri ilə paylaşaraq "Çox dəyərli müəllimim, mənim üçün müqəddəs insan Georgi Kot" şərhini yazıb.

Qeyd edək ki, Gergi Kot Abxaziyada erməni əsilli ailədə dünyaya gəlib. Onun anası Susanna Aqozyan erməni qızıdır.

# Qumralın 7 illik qazancı açıqlandı



***Qumral Musayevanın 7 illik qazancı açıqlanıb.***

"Rəngarəng" verilişində aparıcı Zaur Nəbioğlu Qumral Musayevanın 7 illik qazancını hesablayıb. Aparıcı müğənninin aylıq qazanc məbləğini 84-ə (7 ildəki ayların sayı) vuraraq "1.000.680 min manat!" rəqəmini alıb.

Müğənninin əldə etdiyi gəlir hər kəsi təəccübləndirib.

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:37 PM Page 3





## Hikmət Hacıyev Vahid Cəlalzadə ilə görüşdü

***Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İran İslam Respublikasının xarici işlər nazirinin müavini Vahid Cəlalzadə ilə görüşüb.***

"Unikal" xəbər verir ki, görüş Vahid Cəlalzadənin Bakıya səfəri çərçivəsində baş tutub.

Görüşdə ikitərəfli münasibətlər və regional məsələlər müzakirə edilib.

XİN rəhbərinin müavini bildirib ki, ölkələr arasında dərin əlaqələr İran və Azərbaycan Respublikası xalqları üçün dəyərli sərvətdir.

## Ombudsman BMT-də mina problemindən danışıb

***Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyeva İsveçrənin Cenevrə şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Biznes və İnsan Hüquqları Forumunda iştirak edib.***

Bu barədə "Unikal"a Ombudsman Aparatından məlumat verilib. Bildirilib ki, müvəkkil forum zamanı müzakirələrdə ölkədə biznesin inkişafı və sahibkarlığın dəstəklənməsi istiqamətində həyata keçirilən tədbirlər, biznes və insan hüquqları sahəsində görülən işlər barədə ətraflı məlumat verib.

Ombudsman işğaldan azad edilmiş ərazilərdə mina probleminin davam etdiyini, bu məsələnin bölgənin inkişafına, həmçinin insan hüquq və azadlıqlarının müdafiəsinə ciddi maneə yaratdığını bildirib.

Səbinə Əliyeva həmin ərazilərdə Ombudsman təsisatı tərəfindən müntəzəm olaraq monitorinqlərin aparıldığını və monitorinqlərin nəticələri barədə müvafiq beynəlxalq təşkilatlara məlumatların təqdim edildiyini diqqətə çatdırıb.

Ombudsman, eyni zamanda, işğaldan azad edilmiş ərazilərdə məsuliyyətli biznes fəaliyyətinin, sosial-iqtisadi həyatın bərpası məqsədilə torpaqlarımızın minalardan təmizlənməsində dəstək göstərilməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Forum çərçivəsində Ombudsman Səbinə Əliyeva BMT-nin Biznes və insan hüquqları üzrə İşçi Qrupunun sədri Pichamon Yeophantong ilə görüşüb. Görüş zamanı Səbinə Əliyeva Ombudsman təsisatı tərəfindən Azərbaycanda biznes və insan hüquqları sahəsində hazırlanmış milli qiymətləndirmə sənədi barədə məlumat verib, həmçinin gələcək əməkdaşlığın perspektivləri üzrə fikir mübadiləsi aparılıb.

# Bakıdakı yanğınlarda korrupsiya izləri...

### Bəzi məmurların göz yumduğu özbaşınalıqla işbazların pul hərisliyi faciələrə yol açır - Düzgün diaqnoz qoymaq vaxtıdır!

***Son günlər paytaxtın müxtəlif bölgələrində baş verən yanğınlar cəmiyyətin diqqətini yenidən təhlükəsizlik və fövqəladə hallar məsələlərinə yönəldib. Xüsusilə Yasamal rayonu, Mirəli Seyidov küçəsində yanğının baş verdiyi çoxmərtəbəli yaşayış binasında üç nəfərin ölümü və iyirmiyə yaxın sakinin xəsarət alması ciddi narahatlıq doğurub. Həmin hadisənin ardınca bu dəfə Bakı şəhəri, Nərimanov rayonu, Ə.Rəcəbli küçəsindəki obyektdə partlayış baş verməsi nəticəsində 7 nəfər xəsarət alıb. Beləcə, ictimaiyyətdəki narahatlıq daha da artıb.***

Bəs sözügedən hadisələrin baş verməsinə gətirib çıxaran səbəblər edildikdən sonra qüsurları üzə çıxa bilər. Düşünürəm ki, bu kimi problemlər sonradan ciddi nəticələrə gətirib çıxarır".

Bu arada "Azpolitika" yazıb ki, hazırda mütəxəssislər sözügedən yanğınlarla bağlı eyni şeyi deyir: binalar yanğından mühafizə qaydalarının kobud şəkildə pozulması ilə tikilir, elektrik sistemləri və ventilyasiya çox vaxt keyfiyyətsiz şəkildə qurulur, müvafiq dövlət qurumlarının müfəttişləri illərdir aşkar riskləri "görmürlər", həyətlər maşınlarla doludur, yanğınsöndürən maşınlar və təcili yardım maşınları fiziki olaraq ora çata bilmir, binaların zirzəmiləri restoranlara, anbarlara, ticarət məkanlarına çevrilib və sair. Bütün bunlar mükəmməl bir yanğın tələsi yaradır, burada tək bir qığılcım doğan acgözlüyü və şəhərsalma mədəniyyətindən xəbərsizliyidir. Bir sözlə, son vaxtlar cəmiyyətdə yenidən ciddi narahatlıqlara yol açan yanğınlar, belə görünür, artıq fövqəladə hal kateqoriyasından şəhər həyatının gündəlik ayrılmaz elementi kateqoriyasına keçib və biz demək olar ki, bu vəziyyətə öyrəşmişik.

Yadınızdadırsa, 2015-ci ildə Bakıda, Binəqədi rayonunda dəhşətli bina yanğınında 15 nəfər ölmüş, 50-dən çox insan yaralanmışdı. Həmin vaxt aydınlaşmışdı ki, bu faciənin səbəbi paytaxtda binalara ucuzdur deyə yanğına həssas üzlüklərin çəkilməsi olub. Və sözügedən faciədən sonra məmurlarla MTK-lar öncə əl-ayağa düşmüş, sonra da əl-ələ verib bina üzlüklərini dəyişməyə başlamışdılar. Olan isə məlum yanğında həyatını itirən, xəsarət alan insanlara, onların ailələrinə olmuşdu.



hansılardır? Bu suala cavab olaraq ekspertlər bir-birindən maraqlı, elə bir o qədər də düşündürücü və həyəcanlı açıqlamalar verirlər. Həmin açıqlamalardan belə nəticə hasil olur ki, ölkəmizdə, o cümlədən paytaxt Bakıda tikinti fəaliyyətinin tənzimlənməsi sarıdan ciddi (ciddi olduğu qədər də təhlükəli!) boşluqlar var. Məsələn, əmlak eksperti Elnur Azadov "Sfera"ya açıqlamasında deyib ki, Azərbaycanda bir çox MTK tikinti sahəsindəki mövcud normativlərə və standartlara səthi yanaşır: "Şirkətlər çalışırlar ki, istifadə olunan tikinti materiallarında da qənaət etsinlər. Materialların müəyyən hissələri standartlara cavab versə belə, onların texniki göstəriciləri hər zaman kifayət qədər güclü olmaya bilər. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Azərbaycana Çin də daxil olmaqla müxtəlif ölkələrdən keyfiyyətsiz materiallar idxal olunur. Hansı ki, yalnız laboratoriya yoxlamasından keçdikdən sonra və uzun müddət istifadə kifayətdir ki, bu cür yanğınlar, faciələr baş versin. Yanğın baş verən binanın sakinlərinin sözlərinə görə, bina və ətrafındakı qanun pozuntuları o qədər aşkar olub ki, onları görməmək mümkün deyildi. Kommunal sahə kimi nəzərdə tutulan birinci mərtəbə və zirzəmi restorana, stomatoloji klinikaya, daha sonra isə elektrik doldurma stansiyası üçün generator otağına çevrilib. Bütün bunlar ailələrin, uşaqların, təqaüdçülərin yaşadığı yaşayış binasında cəmləşib (Axtarsanız, Bakıda minlərlə bu cür bina taparsınız).

Əlbəttə, mediada da vurğulandığı kimi, dünyanın hər yerində insan səhlənkarlığı, texniki xəta, təbii fəlakət, təsadüf və s. səbəbindən yanğınlar baş verir. Lakin Azərbaycanda, xüsusilə də Bakıdakı əksər yanğınların səbəbi korrupsiya, rüşvət, "kəndxudanı gör, kəndi çap!" prinsipi ilə işləyən məmurların özbaşınalığı, bina tikən sahibkarların və onlara icazə verənlərin pul hərisliyindən

İndi də Yasamal rayonu, Mirəli Seyidov küçəsindəki binada baş verən faciənin ardından yeni tikilən binaların ilk mərtəbələrində, yaxud zirzəmilərindəki müxtəlif obyektlərin - restoranlardan klinikalaradək! - yaratdığı təhlükədən, bu təhlükənin daha böyük faciələrə yol aça biləcəyindən danışılır. Və kimsə soruşmur: doğrudanmı, hər şeyi daha öncədən proqnozlaşdırmaq mümkün deyil? Doğrudanmı, hansısa özbaşınalığın, acgözlüyün, pul hərisliyinin hansı fəlakətlərə gətirib çıxaracağını görmək üçün mütləq bir faciə yaşanmalı, insanlar həyatını itirməlidir? Adi vətəndaş evindəki qapı-pəncərəni dəyişmək istəyəndə belə tökülüşüb gələn, sıravi insanlar iki daşı bir-birinin üstünə qoymağa macal tapmadan onların başının üstünü kəsdirən, qanunların aliliyindən bəlağətlə danışmağa başlayan aidiyyatı qurumlar gözlərinin qarşısında fəlakət vəd edən yekə-yekə özbaşınalıqları necə, daha doğrusu, nəyin müqabilində görməyiblər?! Əgər məsul vəzifəli şəxslər konkret situasiyalarda məsuliyyətə cəlb edilməyəcəklərsə, baş verən faciələrin məsuliyyəti bir-iki nəfərin üzərinə yüklənməklə məsələ bitmiş sayılacaqsa, təəssüflə vurğulamaq lazımdır: bu gün, sabah, biri gün... oxşar hadisələrin yaşanmayacağına təminat yoxdur.

Lap tibbə dair məşhur qaydada olduğu kimi: "Diaqnoz dəqiq qoyulmalıdır ki, müalicə düzgün aparılsın".

Və indi biz Bakıda baş verən yanğınlarla bağlı səbəbləri obyektiv araşdırmasaq, məsul şəxsləri də düzgün müəyyənləşdirməsək, nəyinsə müsbətə doğru köklü şəkildə dəyişəcəyinə ümid etmək hədsiz pozitivlik olardı...

***Toğrul Əliyev***

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:37 PM Page 4



# Azərbaycanla Ermənistan arasında yekun sülh üçün münbit şərait yaradılır



***Dünən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) Qırğızıstanın paytaxtı Bişkekdə keçirilən sammitinin yekun bəyannaməsi qəbul edilib.***

"Unikal" xarici mediaya istinadən xəbər verir ki, bəyannamədə KTMT ölkələri Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin tezliklə imzalanmasına tərəfdar olduqlarını bəyan ediblər. "Azərbaycan və Ermənistan arasında fəal dövlətlərarası dialoqu məmnunluqla qeyd edirik. Tərəflər arasında hərtərəfli nizamlanmanın və qeyd-şərtsiz sülh sazişinin tezliklə imzalanmasının tərəfdarıyıq", - sənəddə qeyd olunub.

Xatırladaq ki, bu ilin avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ lideri Donald Tramp və Ermənistan Baş naziri Nikol Paşinyanla görüşü çərçivəsində "Azərbaycan Respublikası və Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair Saziş" layihəsi paraflanıb.

Bir neçə gün öncə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov 2026-cı ildə Ermənistanla sülh müqaviləsinin imzalanması ehtimalının böyük olduğunu vurğulayıb. "Əlbəttə ki, heç kim 100% zəmanət verə bilməz, amma mən bu ehtimala nikbin yanaşıram. Azərbaycanla sülh prosesinin başa çatması Ermənistanın özünün maraqlarına uyğundur, ona görə də inanıram ki, belə bir ehtimal çox yüksəkdir", - deyə Ceyhun Bayramov bildirib.

C.Bayramovun sözlərinə görə, bunun asan olacağını düşünmür. Onun fikrincə, əvvəlki kimi, üçüncü ölkələr tərəfindən bu prosesi pozmaq cəhdləri olacaq. Nazir hesab edir ki, iki ölkə arasındakı münasibətlərin tarixi nəzərə alınmaqla, sülh müqaviləsinin imzalanmasının qısa müddət sonra Azərbaycan və Ermənistan arasında sıx dostluq və tamhüquqlu mehriban qonşuluq münasibətlərinə gətirib çıxarması ehtimalı azdır.

Politoloq Məhəmməd Əsədullazadə deyib ki, Azərbaycanla Ermənistan arasında Yekun sülh müqaviləsinin Kreml rəhbərliyi Moskvada bağlanmasına çalışır. Onun sözlərinə görə, bu müstəvidə Azərbaycan və Ermənistana vaxtaşırı mesajlar göndərilir: Azərbaycan və Ermənistan Yekun sülh müqaviləsini hər iki ölkənin delimitasiya olunmuş sərhədində bağlana bilər. Bunun üçün nə Vaşinqton, nə də digər paytaxtlara ehtiyac yoxdur. Amma, geosiyasi proseslərin dəyişməsi fonunda Yekun sülh müqaviləsinin yenidən Vaşinqtonda imzalanması istisna deyil. Xüsusilə, Rusiyanın artan təzyiqləri fonunda bu proses baş tuta bilər. Qeyd edim ki, hər iki ölkənin vətəndaş cəmiyyəti arasında dialoq keçirilir. Rusiya çalışır ki, bu prosesin qarşısını alsın. Rusiyanın artan təzyiqləri hər iki ölkənin sülh prosesi ilə bağlı mövqeyini dəyişə bilməyəcək".

Siyasi şərhçi Həsrət Rüstəmov isə bakivaxti.az-a açıqlamasında deyib ki, Ermənistanda münaqişənin, qarşıdurmanın davam etməsini istəyənlər var. Onun fikrincə, Baş nazir Nikol Paşinyan üçün əslində dəhlizin adının nə olmasının ciddi bir əhəmiyyəti yoxdur: "Çünki erməni baş nazir reallıqları qəbul edə bilən siyasətçidir. Amma qarşıda parlament seçkisi var və baş nazir qalib gəlməlidir. Ona görə də Paşinyan və komandası bəzən pafoslu, bəzən də reallıqla uzlaşmayan bəyənatlar verirlər və verməyə davam edəcəklər".

Müsahibimizə görə, əsas məsələ heç də adda deyil, əsas məsələ sülh və əməkdaşlığın başlanmasıdır. H.Rüstəmov vurğulayıb ki, regiona soxulmağa çalışanların qarşısını yalnız sülh kəsə bilər: "Ermənilər artıq tamamilə bunu başa düşməlidirlər".

Qeyd edək ki, Azərbaycan və Ermənistan arasında Zəngəzur dəhlizinin açılması ilə bağlı razılaşma var. Bunu erməni politoloq Benyamin Matevosyan deyib. Ekspert Azərbaycanın əsas hissəsi ilə eksklavı Naxçıvanı birləşdirəcək dəhlizin üç il ərzində işə düşəcəyini bildirib. Matevosyan vurğulayıb ki, Ermənistan və Azərbaycanın siyasi bəyanatlarına baxaraq, bunu istəyirsiniz "Tramp yolu", istəyirsiniz "Zəngəzur dəhlizi", ya da "Sülh qovşağı" adlandırın, 2028-ci ilin ikinci yarısında dəhlizi işə salmağı planlaşdırırlar: "Bu barədə yaxınlarda Azərbaycan Prezidenti İlham Əliyev də danışıb, Ermənistan Baş naziri Nikol Paşinyan da təxminən eyni tarixi Gürcüstandakı sammitdə qeyd etmişdi. Yəni hazırda həm Ermənistan, həm də Azərbaycanda dəhlizin işə düşmə tarixlərinə dair bir konsensus mövcuddur".

Xatırladaq ki, Türkiyənin xarici işlər naziri Hakan Fidanın "Zəngəzur dəhlizi" ifadəsi Ermənistanda isterik vəziyyət doğurmuşdu. XİN rəhbəri Ararat Mirzoyanın ardınca baş nazir Nikol Paşinyan da türkiyəli rəsminin sözlərinə reaksiya vermişdi. Paşinyan dəhlizin "Zəngəzur" yox, "Tramp marşrutu" adlandığını vurğulayıb.

Hər halda, ümumi nəticə odur ki, Azərbaycan qalib dövlət kimi prinsipal mövqeyini qoruyub saxlayır. Eyni zamanda, maraqlı tərəflərin, prosesə hər hansı təsiri olan ölkələrin də mövqelərini nəzərə alaraq, balanslı siyasət aparır. Prezident İlham Əliyev İrəvanı kənar təsir dairələrindən kənarlaşdıran strategiyanın müəllifinə çevirdi. İndi isə daha geniş bir plan hazırlanır və ehtimalla bu, daha çox, İrəvan üzərindəki Rusiya təsirlərini minimallaşdırmağı hədəfləyir. Azərbaycan dövləti Ermənistan daxilindəki hadisələri Bakının perspektiv reaksiyaları ilə tutuşdurmaq üçün sistemləşdirilmiş layihə başladır. Gümanla Ermənistan hüdudlarında Paşinyana qarşı hərəkatın qüvvətlənməsi geniş mənada Azərbaycanın gələcəkdə əldə edəceyi uğurların qarşısını almağa yönəlib. Başqa ifadə ilə, ekslərlə Paşinyan arasında keçmişin qurcalanması Azərbaycanı Ermənistanda əsas aktor olması prosesini başlatmasına verilən əks reaksiyadır.

***Seymur Əli***

# "Rəqəmsal infrastrukturun inkişafı prioritetimizdir" - Rəşad Nəbiyev



***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Özbəkistanda Mərkəzi Asiya, Cənubi Qafqaz və Qara dəniz regionlarının nəqliyyat nazirlərinin görüşündə iştirak edib.***

"Unikal" xəbər verir ki, görüşdə çıxış edən nazir bildirib ki, regional nəqliyyat dəhlizləri təkcə ticarət yolları deyil, eyni zamanda iqtisadi rifahın, davamlı inkişafın və uzunmüddətli sülhün əsasını təşkil edir.

Rəşad Nəbiyev dəmir yolları, limanlar və avtomobil yolları daxil olmaqla fiziki infrastrukturun modernləşdirilməsinin, gömrük prosedurlarının sadələşdirilməsinin və rəqəmsal infrastrukturun inkişaf etdirilməsinin Azərbaycanın prioritetləri olduğunu diqqətə çatdırıb.

Azərbaycanın Avropa İttifaqı ilə tərəfdaşlıq çərçivəsində regionun daha dayanıqlı, rəqabətqabiliyyətli və əlaqəli olmasını təmin etməyi hədəflədiyini vurğulayıb.

# Sahil Babayev: "İordaniya Azərbaycanı tranzit habı kimi nəzərdən keçirir"



***İordaniya Azərbaycanı tranzit habı kimi nəzərdən keçirir və Orta Dəhliz bu məsələdə strateji rol oynaya bilər.***

Bunu maliyyə naziri Sahil Babayev Bakıda Azərbaycan və İordaniya arasında ticarət, iqtisadi və texniki əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın IV iclasının yekunlarına dair mətbuat konfransında bildirib.

"Vacib hesab etdiyimiz istiqamətlərdən biri məhz tranzit potensialımızdan istifadədir. Bununla yanaşı, Zəngəzur dəhlizi həm Orta Dəhlizin əsas hissəsidir, həm də qərb və şimal-cənub dəhlizlərinin kəsişməsində yerləşir. Buna görə İordaniya üçün Azərbaycan tranzit habı kimi nəzərdən keçirilir və bu istiqamətdə həm cənubdan, həm də qərbdən gələn malların digər istiqamətlərə yönləndirilməsi (və əksinə) məsələsi müzakirə olunur. Bu dəhliz gələcəkdə onlar üçün çox vacib, strateji rol oynaya bilər", - nazir bildirib. Onun sözlərinə görə, Azərbaycan, eyni zamanda İordaniyanın tranzit potensialından geniş istifadə imkanlarını nəzərdən keçirir: "Xüsusilə Yaxın Şərq regionunda biz İordaniyanın təqdim etdiyi tranzit imkanından istifadə etmək niyyətindəyik".

# Azərbaycan informasiya məkanını qorumaq üçün ciddi addımlar atıb

***"Azərbaycan informasiya məkanını qorumaq üçün ciddi addımlar atıbvə biz bu addımların nəticələrini görürük".***

Bu sözləri Türk Dövlətləri Təşkilatının Media Forumunda Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli deyib.

O bildirib ki, ölkələrin informasiya məkanına müdaxilə məsələsi son dərəcə vacibdir: "Bu məsələnin iki aspekti mövcuddur: birincisi media tərəfidir, ikincisi isə dövlətin maraqları ilə bağlıdır. Media yarandığı gündən etibarən müxtəlif təhdidlər fonunda formalaşıb. Media təhdidlərin artdığı şəraitdə böyüyüb, inkişaf edib və bu təhdidlərə qarşı ümumi strategiyalar formalaşdırılıb".

Bu il Azərbaycan milli mətbuatın yaranmasının 150 illiyinin qeyd olunduğunu xatırladan Natiq Məmmədlinin sözlərinə görə, informasiya bolluğu insanların doğru məlumatı tapıb öyrənməsini çətinləşdirir ki, bu da media üçün təhdid yaradan əsas amillərdən biridir.

45_27 IYUI-QARA.qxd 11/27/2025 11:37 PM Page 5



# İlham Əliyev "AZWOOL" zavodunun açılışında iştirak edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakının Qaradağ rayonunda "Matanat-A" şirkətinin "AZWOOL" mineral daş yunu zavodunun açılışında iştirak edib.***



"Unikal"xəbər verir ki, iqtisadiyyat naziri Mikayıl Cabbarov və "Matanat-A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Bəşirov dövlət başçısına zavodun fəaliyyəti barədə məlumat veriblər.

Prezident İlham Əliyevə əvvəlcə əsası 2000-ci ildə qoyulan "Matanat-A" şirkəti barədə məlumat verilib. İnşaat materiallarının istehsalı sektorunda 25 ildir fəaliyyət göstərən şirkətin tərkibinə "Matanat A" Quru İnşaat Qarışıqları, AĞDAĞ gipskarton və gips əsaslı məhsulların istehsalı, AZERLİME Əhəng, Avadanlıq və dəzgahların istehsalı və ELBERG maşınqayırma zavodları daxildir. Şirkətin müəssisələrində ümumilikdə 1000-ə yaxın iş yeri yaradılıb.

Ərazisi 10 hektar olan "AZWOOL" mineral daş yunu zavodunda ABŞ, Almaniya və Türkiyədə istehsal edilən müasir avadanlıqlar quraşdırılıb. Zavodun illik istehsal gücü 1,5 milyon kubmetr mineral daş yunudur. Müəssisədə məhsullar əsasən yerli xammaldan hazırlanır.

Mineral daş yunu zavodunun investisiya dəyəri 43 milyon manatdır. Layihənin reallaşdırılması üçün İqtisadiyyat Nazirliyinin tabeliyində Azərbaycan Biznesinin İnkişafı Fondu tərəfindən 10 milyon manat güzəştli kredit ayrılıb. Bununla yanaşı, müəssisə investisiya təşviqi sənədi ilə texnika, texnoloji avadanlıq və qurğuların idxalı zamanı təxminən 4 milyon manat güzəşt əldə edib. Zavodda 180 iş yeri yaradılıb.

Tikinti sektorunda istifadə olunan, ekoloji cəhətdən təmiz mineral daş yunu istilik və səs izolyasiyasını təmin etməklə yanaşı, enerjiyə qənaətə imkan yaradır. Mineral daş yunu Azərbaycanda rəqabət üstünlüyünə malik yerli məhsullardan biridir. Ona daxili və xarici bazarda böyük tələbat var. Zavodun açılışı yerli istehsalın təşviqi, daxili bazarın tələbatının ödənilməsi və xarici bazarda Azərbaycan məhsullarının rəqabət qabiliyyətinin artırılmasına xidmət edəcək. Müəssisə ölkəmizin mineral daş yununa tələbatını ödəməklə yanaşı, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaldacaq. Həmçinin burada istehsal olunan məhsullar Gürcüstana, MDB və Yaxın Şərq ölkələrinə ixrac ediləcək.

Prezident İlham Əliyev "Matanat-A" şirkətinin müəssisələrində istehsal edilən məhsullarla da tanış oldu. Bildirildi ki, şirkətin zavodlarında 200-dən artıq ticarət markası ilə 3 mindən çox çeşiddə məhsul istehsal edilir. Məhsullar daxili tələbatı ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə Qazaxıstan, Gürcüstan, İraq, Ukrayna, Özbəkistan və digər xarici ölkələrə ixrac olunur.

Dövlət başçısı zavodu işə salıb.

Qeyd edək ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qeyri-neft sektorunun şaxələndirilməsi və inkişafı istiqamətində aparılan işlər nəticəsində ölkəmizdə yeni-yeni istehsal sahələri yaradılır. Bütün bunlar isə, eyni zamanda, yeni iş yerlərinin açılmasına, əhalinin məşğulluğunun artırılmasına böyük töhfə verir.

# Müəllimlərin attestasiyasının vaxtı açıqlandı



***Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərən musiqi və incəsənət məktəbləri müəllimlərinin peşə səriştə və bacarıqlarının ölçülməsi məqsədilə növbəti attestasiya 2020-cı ilin fevral ayında keçiriləcək.***

Bu barədə mədəniyyət nazirinin müşaviri Cəsarət Valehov sosial şəbəkədə ona ünvanlanan suala cavab olaraq bildirib. Budəfəki attestasiya regionlardakı musiqi və incəsənət məktəblərini əhatə edəcək.

Xatırladaq ki, 2025-ci il üzrə nəzərdə tutulan attestasiya prosesi iyulun 1-də başa çatıb. Builki attestasiya Bakı, Abşeron-Xızı, Mil-Muğan, Şirvan-Salyan və Quba-Xaçmaz regionlarındakı təhsil ocaqlarını əhatə edib.

Fevralın 28-də başlayan və iyulun 1-də başa çatan mərhələli prosesdə müxtəlif ixtisaslar üzrə ümumilikdə 4100-dək müəllimin bilik və təcrübəsi qiymətləndirilib. Attestasiya komissiyasının qərarına əsasən tutduğu vəzifəyə uyğun hesab edilməyən müəllimlərin əmək müqaviləsinə xitam verilib.

2026-cı ildə ölkənin bütün regionları üzrə Mədəniyyət Nazirliyi sistemindəki təhsil ocaqlarında çalışan müəllimlərin attestasiyası başa çatdırılacaq.

# YAP nümayəndə heyətinin Kubaya səfəri başa çatdı

***Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun başçılıq etdiyi nümayəndə heyətinin Kuba Respublikasına səfəri çərçivəsində bu ölkənin Baş nazirinin müavini, xarici ticarət və xarici investisiyalar naziri Oskar Perez-Oliva Fraqa ilə görüşü keçirilib.***

"Unikal" xəbər verir ki, görüş zamanı Ümummilli Lider Heydər Əliyevin və Kubanın Ali Baş Komandanı Fidel Kastronun xalqlarımız arasında münasibətlərin və ölkələrarası əməkdaşlıq əlaqələrinin qurulmasında tarixi əhəmiyyətə malik müstəsna rolu qeyd olunub. Bu gün dövlət başçılarının məqsədyönlü siyasəti sayəsində ikitərəfli münasibətlərin inkişafının diqqət mərkəzində olduğu vurğulanıb.



İqtisadi-ticari, turizm, səhiyyə, təhsil və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi, prioritet hədəflərin reallığa çevrilməsi üçün önəmli potensialın olduğu bildirilərək qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Nümayəndə heyətinin Kuba Kommunist Partiyası (KKP) Siyasi Bürosunun üzvü, Kuba Qadınlar Federasiyasının Baş katibi Teresa Amareye Bouye və KKP Mərkəzi Komitəsinin üzvü, Gənc Kommunistlər İttifaqının Baş katibi Meyvis Estevez Eçeveria ilə də görüşləri olub.

Görüşlərdə Yeni Azərbaycan Partiyasının nümayəndə heyətinin Kubaya səfərinin qarşılıqlı faydalı olacağına və hərtərəfli əməkdaşlığa stimul verərək Azərbaycan-Kuba münasibətlərinə dinamizm gətirəcəyinə əminlik ifadə olunub. Bildirilib ki, YAP ilə KKP arasında Əməkdaşlıq Sazişinin imzalanması dostluq və tərəfdaşlıq əlaqələrinin əsaslarının möhkəmləndirilməsi və işbirliyinin yeni istiqamətlərinin müəyyənləşdirilməsi baxımından çox önəmlidir.

Görüşlər zamanı, həmçinin hər iki ölkədə həyata keçirilən gənclər siyasətindən, o cümlədən gənclərin ictimai-siyasi həyatda fəallığının artırılması istiqamətində görülən işlərdən bəhs olunaraq bu sahədə təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. Əməkdaşlıq Sazişinin icrasının hər iki partiyanın gəncləri arasında əlaqələri gücləndirəcəyinə inam ifadə olunaraq daimi təmaslar fonunda ortaq layihələrin təşkilinin önəmi qeyd edilib.

Nümayəndə heyətinin FIHAV ("Expocuba") sərgisinə ziyarəti də təşkil olunub.

Səfər noyabrın 27-də başa çatıb.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Hökumətdən dərmanlarla bağlı qərar

***Dərmanlarla əlaqədar rəyi alınacaq orqanların sayı artırılıb.***

"Unikal" xəbər verir ki, Nazirlər Kabineti bu barədə qərar verib.

Qərara əsasən, əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Tarif (qiymət) Şurası tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin də rəyi alınacaq.

İndiyə qədər əhalinin sağlamlığı baxımından xüsusi əhəmiyyət kəsb edən dərman vasitələrinin ölkədaxili topdansatış əczaçılıq müəssisələrinə şərti satış qiymətlərinin ilk dəfə müəyyənləşdirilməsi və ya həmin qiymətlərə yenidən baxılması ilə əlaqədar Şura tərəfindən İqtisadiyyat Nazirliyinin, Səhiyyə Nazirliyinin, Dövlət Gömrük Komitəsinin, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin rəyləri alınıb.

# Zakir Həsənov İsrail nümayəndə heyətini qəbul etdi

***Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycanda səfərdə olan İsrail Müdafiə Nazirliyinin Müdafiə Tədqiqat və İnkişaf İdarəsinin rəisi, ehtiyatda olan briqada generalı Daniel Qoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.***



"Unikal" xəbər verir ki, bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

Müdafiə naziri Azərbaycanla İsrail arasında xüsusilə hərbi-texniki sahədə əməkdaşlığın cari vəziyyətindən razılığını bildirib. Görüşdə hər iki ölkə arasında hərbi əlaqələrin inkişafında qarşılıqlı səfərlərin vacibliyi qeyd olunub, həmçinin maraq doğuran bir sıra digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

## ELAN

**Vətəndaş Abdullayeva Jalə İslam qızının yaşadığı Abşeron rayonu, Saray qəsəbəsində yerləşən "Jasmin Park" yaşayış massivi, ev 4, mənzil 58 ünvanına aid müqavilə itdiyi üçün etibarsız sayılır.**

45_27 IYUI-QARA.qxd 11/27/2025 11:37 PM Page 6



# TDT-nın Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası oldu

***27 noyabr 2025-ci il tarixində Bakı şəhərində Türk Dövlətləri Təşkilatının Media və informasiya üzrə işçi qrupunun 12-ci iclası keçirilib.***

"Unikal" xəbər verir ki, iclasda açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov bildirib ki, TDT çərçivəsində media sahəsində həyata keçirilən birgə layihələr, institusional əməkdaşlıq mexanizmləri və qarşılıqlı informasiya mübadiləsi türkdilli dövlətlər arasında vahid və dayanıqlı kommunikasiya məkanının formalaşmasına mühüm töhfə verir. O vurğulayıb ki, iclasın gündəliyində əksini tapan məsələlər informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, dezinformasiya ilə mübarizədə birgə addımların koordinasiyası, strateji kommunikasiya bacarıqlarının inkişafı və media sahəsində ortaq təşəbbüslərin daha səmərəli şəkildə həyata keçirilməsi baxımından yeni imkanlar açır.



Türk Dövlətləri Təşkilatının Baş katibinin müavini Ömer Kocaman çıxışında qeyd edib ki, müasir informasiya mühiti təkcə təhlükəsizlik baxımından deyil, həm də idarəetmə, planlaşdırma və dövlətlərarası koordinasiya baxımından yeni yanaşmalar tələb edir. Bildirilib ki, TDT çərçivəsində media qurumları arasında dialoqun artırılması, məlumat axınının sistemli şəkildə qurulması və digər önəmli məsələlər təşkilatın qarşıdakı illər üzrə əsas hədəflərindən biridir. Həmçinin diqqətə çatdırılıb ki, rəqəmsal transformasiyanın sürətləndiyi dövrdə media sahəsində qarşılıqlı fəaliyyət yalnız informasiyanın ötürülməsi ilə məhdudlaşmamalı, eyni zamanda innovativ yanaşmaların tətbiqi, yeni media alətlərinin potensialından istifadə və ortaq kommunikasiya mədəniyyətinin formalaşdırılması kimi istiqamətləri də əhatə etməlidir.

Daha sonra TDT-nin müvafiq sahə üzrə 2025-ci il üçün Fəaliyyət Planının icra vəziyyəti müzakirə edilib və 2026-cı il üçün uyğunlaşdırılaraq yenilənib. Həmçinin, TDT-nin media və informasiya üzrə məsul nazirlərinin və yüksək vəzifəli rəsmilərinin 7-ci toplantısının yekun sənədi olan Kommünike layihəsi ətrafında fikir mübadiləsi aparılıb, növbəti toplantının keçirilmə yeri və tarixlərinə dair təkliflərin müzakirəsi həyata keçirilib.

# Ermənistan vətəndaşlarının məhkəməsində təqsirləndirilən şəxslərin vəkillərinin müdafiə çıxışı başladı

***Noyabrın 27-də Bakı Hərbi Məhkəməsində Ermənistan Respublikası vətəndaşlarının ittiham olunduğu cinayət işi üzrə məhkəmə prosesi davam etdirilir.***

"Unikal" xəbər verir ki, məhkəmə iclasında təqsirləndirilən şəxslər, onların müdafiəçiləri, zərərçəkmiş şəxslərin bir qismi, onların hüquqi varisləri və nümayəndələri, həmçinin dövlət ittihamını müdafiə edən prokurorlar iştirak edirlər.

Məhkəmə prosesi təqsirləndirilən şəxslərin vəkillərinin müdafiə çıxışı ilə başlayıb. Təqsirləndirilən şəxs Qurgen Stepanyanın müdafiəçisi Zümrüd Səmədova çıxışı zamanı xatırladıb ki, dövlət ittihamını müdafiə edən prokuror Q.Stepanyanın 16 il müddətinə azadlıqdan məhrum etmə cəzasına məhkum edilməsini məhkəmədən xahiş edib. Vəkil bildirib ki, təqsirləndirilən şəxs özünü irəli sürülmüş ittihamlarda təqsirli bilmir. Onun sözlərinə görə, Q.Stepanyan məhkəmə istintaqı zamanı verdiyi ifadəsində göstərdiyi kimi, 2005-2007-ci illərdə Hadrut şəhərində müddətli həqiqi hərbi qulluqçu kimi xidmət edib, 2023-cü ildə isə döyüş postuna aparılıb. Vəkil deyib ki, 2023-cü ildə sentyabrın 19-da o, mövqeyini tərk edərək Xankəndi şəhərinə qaçıb və yolda Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçuları ilə rastlaşaraq onlara təslim olub.

"Müdafiə tərəfi olaraq hesab edirəm ki, Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 42.1.4-cü maddəsinə əsasən şəxsin təqsirliliyi sübuta yetirilmədiyi əsası ilə ona bəraət verilməlidir. Odur ki, məhkəmədən həmin maddəni əsas götürməklə təqsirləndirilən şəxsə bəraət verilməsini xahiş edirəm", - deyə vəkil əlavə edib.




Qeyd edək ki, Ermənistanın hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, habelə terrorçuluq, terrorçuluğun maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə, onu zorla saxlama və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşlarının məhkəməsi davam etdirilir.

# Şəhidlər xiyabanında qeyri-etik video çəkən ərəblər Azərbaycan xalqından üzr istədilər

***Bakıda Şəhidlər xiyabanında qeyri-etik videolar çəkərək həmin videogörüntünü sosial şəbəkələrdə paylaşan Səudiyyə Ərəbistanının üç vətəndaşının cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilib.***

"Unikal"ın məlumatına görə, Səbail Rayon Məhkəməsində keçirilən prosesdə təqsirləndirilənlər - Alzaman Mahdi Ali, Alghabr Mohammad Hussain, Alghabr Mahdi Mohammada hüquq və vəzifələri izah olunub. Təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilərkən məlum olub ki, Alghabr Mohammad Hussain Səudiyyə Ərəbistanının Daxili İşlər Nazirliyində tədqiqatçı işləyir. Daha sonra onların Azərbaycan xalqına, eləcə də, şəhid ailələri və qazilərə etdiyi müraciət məhkəmədə elan olunub. Hər 3 şəxs müraciətində bildirib ki, onlar olduqları yerin mahiyyətini dərk etmədiyindən bu hərəkətə yol veriblər.

"Azərbaycan bizim üçün dost və doğma ölkədir. Həmin yerin Azərbaycan xalqı üçün müqəddəs olduğunu bilməmişik. Buna görə də Azərbaycan xalqından, şəhid ailələrindən və qazilərdən üzr istəyirik".

Prosesin davamında dövlət ittihamçısı ittiham aktını elan edib.

İttihama görə, sözügedən şəxslər bu il avqustun 16-da, saat 17:00 radələrində Şəhidlər Xiyabanına gələrək bir neçə şəhidin məzarı üzərində qeyri etik hərəkətlər ediblər. Təqsirləndirilən şəxslər ittiham üzrə özlərini təqsirli hesab etməyiblər.

Qeyd edək ki, araşdırmalarla həmin şəxslərin bu ilin avqustun 13-də Bakıya turist kimi beşgünlük gəldikləri və Şəhidlər xiyabanında çəkdikləri videonu sosial şəbəkələrdə yaydıqları müəyyənləşdirilib.

Faktla bağlı Cinayət Məcəlləsinin 245-ci (Qəbir üzərində təhqiredici hərəkət) maddəsi ilə cinayət işi başlanılıb. Polis əməkdaşlarının gördüyü tədbirlərlə hər üç şəxs saxlanılaraq istintaqa cəlb ediliblər.

**Seymur Əli**



# Baş nazir sertifikasiya qaydası ilə bağlı qərar verdi

***"Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiyası Qaydası" təsdiqlənib.***

"Unikal" xəbər verir ki, bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb.

Qərara əsasən, praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan və ya bu fəaliyyətlə məşğul olmaq istəyən şəxslərin sertifikasiya imtahanının sınaq imtahanında iştirak haqqının məbləği tibb və ya səhiyyə ixtisasları üzrə ali təhsili olan tibb mütəxəssisləri üçün 35 (otuz beş) manat, orta ixtisas təhsili olan tibb mütəxəssisləri üçün 25 (iyirmi beş) manat təsdiq edilib.

Davamlı peşəkar inkişaf üzrə minimum kreditin həcmi hər il orta hesabla 50 (əlli) kredit olmaqla 5 (beş) il ərzində minimum 250 (iki yüz əlli) kredit təsdiq edilib.

Bu Qərar qüvvəyə mindiyi günədək sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddəti başa çatmamış tibb mütəxəssisləri minimum 250 (iki yüz əlli) kreditdən hər il üzrə nəzərdə tutulmuş orta illik hesabla 50 (əlli) krediti topladıqda, sertifikasiya şəhadətnaməsinin qüvvədəolma müddətinə bir ildən az qalmış tibb mütəxəssisləri 50 (əlli) krediti topladıqda şəhadətnamə əldə etməlidirlər.

# Mikayıl Cabbarov yenidən federasiya prezidenti seçildi

***Azərbaycan Güləş Federasiyasının (AGF) ümumi yığıncağı keçirilib.***



"Unikal" xəbər verir ki, tədbirdə AGF prezidenti vəzifəsinə səsvermə həyata keçirilib.

Mikayıl Cabbarov növbəti 4 il üçün yenidən federasiyanın prezidenti seçilib.

Dünya Güləş Birliyinin (UWW) Büro üzvü Namiq Əliyev isə növbəti dəfə vitse-prezident vəzifəsinə seçilib.

Həmçinin İcraiyyə Komitəsinin üzvləri səsvermə yolu ilə müəyyənləşiblər: Mikayıl Cabbarov, Namiq Əliyev, Namiq Abdullayev, Fərid Mansurov, Vasif Məmmədov.

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:37 PM Page 7





## Azərbaycanda media savadlılığı həftəsi başlayacaq

***Dünyada media yarandığı gündən təhdid və təqiblərlə formalaşıb. Media bu təhdidlər fonunda böyüyür, inkişaf edir və buna qarşı onda immunitet formalaşır.***

"Unikal" xəbər verir ki, bunu Medianın İnkişafı Agentliyinin icraçı direktorunun müavini Natiq Məmmədli Türk Dövlətləri Təşkilatının Media Forumu çərçivəsində baş tutan "Müasir dövrdə artan qlobal informasiya təhdidlərinə qarşı dayanıqlı və preventiv addımlar: Türk dövlətlərinin media ekosistemi nümunəsində" mövzusuna həsr olunan panel sessiyada çıxışı zamanı deyib.

N.Məmmədli bildirib ki, hazırkı dövrdə media senzurasının mahiyyəti dəyişib.

"İndi informasiya bolluğu insanlara lazım olan məlumatı tapıb seçməkdə çətinlik yaradır. Süni intellekt əsaslı informasiyaların, feyk-nyusların artımı peşəkar medianın inkişafında ciddi əngəllərdən biridir. Yeni "Media haqqında" Qanun Azərbaycan unformasiya məkanının qorunması üçün hüquqi immunitet rolunu oynayır", - deyə o vurğulayıb.

O, həmçinin qeyd edib ki, növbəti ay Azərbaycanda media savadlılığı həftəsi başlayacaq.

## Füzulidə DOST məntəqəsi fəaliyyətə başlayıb

***Füzuli şəhərində Qarabağ Regional DOST Mərkəzinin DOST məntəqəsi fəaliyyətə başlayıb.***

"Unikal" xəbər verir ki, məntəqənin açılış mərasimində iştirak edən əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyəti sədrinin birinci müavini Samir Hümbətov orada yaradılan şəraiti və xidmətlərin göstərilməsi prosesini nəzərdən keçiriblər.

Diqqətə çatdırılıb ki, Böyük Qayıdış Proqramına uyğun olaraq dogma yurd yerlərinə qayıdan insanların DOST xidmətləri ilə əhatə edilmələri üçün ardıcıl işlər aparılır.

Qeyd edək ki, 2022-ci ildə Zəngilanın Ağalı kəndində "Smart DOST" məntəqəsi, 2023-cü ildə Bərdədə 10 rayon və şəhərin (Bərdə, Tərtər, Ağcabədi, Ağdam, Füzuli, Xocalı, Şuşa, Xocavənd, Ağdərə, Xankəndi) sakinlərinə xidmət göstərən Qarabağ Regional DOST Mərkəzi və 2024-cü ildə onun Şuşada filialı, bu ilin avqust ayında isə Kəlbəcərdə DOST məntəqəsi açılıb.

# "Həkim çatışmazlığı ən çox bölgələrdə özünü büruzə verməkdədir"

## Müşfiq Məmmədli: "Yeni formalaşan gənc həkimlərin regionlarda işləməsini stimullaşdırmaq lazımdır"

***Milli Məclisin Səhiyyə komitəsinin üzvü, deputat Müşfiq Məmmədli "Unikal"a müsahibə verib. O, hansı şəxslərin aylıq 16 manat icbari tibbi sığorta haqqı ödəyəcəyindən, regionlarda həkim çatışmazlığının necə aradan qaldırıla biləcəyindən və onkoloji xəstəliklərin nə zaman icbari tibbi sığorta zərfinə əlavə ediləbiləcəyindən danışıb.***

***-Son günlərdə işsizlərin (qeyri-formal məşğul şəxslər) aylıq 16 manat icbari tibbi sığorta haqqı ödəyəcəyi barədə "Tibbi sığorta haqqında" qanuna təklif olunan dəyişikliklər geniş müzakirə olunan məsələlərdəndir. Həmçinin qeyd olunur ki, bu məbləği vaxtında ödəməyənlərə 10 faiz miqdarında cərimə tətbiq ediləcək. Bu qanuna dəyişikliyi necə qiymətləndirirsiz?***



- "Tibbi sığorta haqqında" qanuna edilmiş müvafiq dəyişikliklərdən sonra artıq qeyri-formal məşğul şəxslər icbari tibbi sığorta haqqını özləri ödəyəcəklər. Əmək müqaviləsi, VÖEN olmadan fəaliyyət göstərən, kənd təsərrüfatında qeydiyyatsız olaraq çalışaraq gəlir əldə edən şəxslər qeyri-formal məşğul şəxslər hesab olunurlar. Bu şəxslər ya öz əmək fəaliyyətlərini leqallaşdırmalı və yaxud qeyri-formal məşğul şəxslər kimi icbari tibbi sığorta haqqını özləri ödəməlidirlər. İcbari tibbi sığorta haqqı ödəniləcək məbləğ aylıq təxminən 16 manatdır. Hər ayın müəyyən edilmiş günündə icbari tibbi sığorta haqqı olan 16 manat ödənilməlidir. Zamanında ödənilmədikdə 10% cərimə nəzərdə tutulub. Burada məqsəd həm əhalinin leqal əmək fəaliyyətinə cəlb olunmasını stimullaşdırmaq, həm də gəlir əldə edən şəxslərin ödənişlərinin özləri tərəfindən həyata keçirilməsini tənzimləməkdən ibarətdir. Burada işsiz kimi qeydiyyatda olan şəxslər istisnadır. Yəni, gəlir əldə etməyən, işsiz olan və müvafiq dövlət qurumunda qeydiyyatda olan şəxsin icbari tibbi sığorta haqqı yenə də dövlət tərəfindən ödənilir. Ümumiyyətlə, İcbari Tibbi Sığorta Fonduna dövlət tərəfindən bir çox əhali qrupunun icbari tibbi sığorta haqları dövlət tərəfindən ödənilir. 18 yaşa qədər olan uşaqlar, 23 yaşa qədər bakalavr təhsili alan tələbələr, sağlamlıq imkanları məhdud olan şəxslər və bütün növ pensiya, müavinət alan şəxslərin hər biri dövlət tərəfindən sığorta olunmuş sayılır. Bu şəxslərin sığorta ödənişləri dövlət büdcəsinin vəsaitləri hesabına İcbari Tibbi Sığorta Fonduna ödənilir. Bunun üçün Azərbaycan Respublikasının dövlət büdcəsində vəsait nəzərdə tutulub. Qeyri-formal məşğul şəxslər İcbari Tibbi Sığorta Fonduna ödənişi könüllü edir. Ödəniş etmədikdə İcbari Tibbi Sığorta Fondunun vəsaitləri hesabına sığorta olunmuş hesab olunmur. Buna görə tibbi xidmətləri icbari tibbi sığorta hesabına deyil, öz vəsaiti hesabına alacaq.

***-Hər zaman müzakirə olunan məsələlərdən biri həkim çatışmazlığı ilə bağlıdır. Problem əsasən regionlarda müşahidə olunur. Büdcə müzakirəsi zamanı bu məsələ ilə bağlı fikir bildirən həmkarlarınız oldu. Son illər gənc həkimlərin işləmək üçün başqa ölkələrə getdiyi qeyd edildi. Həkim çatışmazlığının qarşısının alınması üçün hansı tədbirlər görülməlidir?***

-Hazırda həkim çatışmazlığı xüsusilə bölgələrdə özünü büruzə verməkdədir. Ümumiyyətlə, ölkə üzrə götürdükdə həkimlərin disproporsional yerləşdirilməsi məsələsinin daha aktual olduğunu görürük. Bakıda, Abşeron yarımadasında və böyük şəhərlərdə həkim çatışmazlığından danışmaq doğru olmazdı. Ona görə ki, qeyd etdiyim ərazilərdə kifayət qədər həkimlə təchizat orta-statistik rəqəmlərə uyğundur. Amma regionlarda, xüsusilə kənd rayonlarında və qəsəbələrdə ixtisaslı həkim çatışmazlığı müşahidə olunur. Bu prosesin səbəblərindən biri həkimlərin hazırlıq müddətinin çox olmasıdır. Belə ki, zaman baxımından bir həkimin mütəxəssis kimi yetişməsinə 10 il vaxt lazımdır. Kifayət qədər intensivliklə həkim kadrlarının bölgələrdə təminatını həyata keçirmək üçün bu da bir maneədir. Bundan başqa rezidentura dövründə həkim kadrlarının xarici ölkələrə getməsinin qarşısının alınması üçün tədbirlər görülməlidir. Ümumi ixtisas sahibi olan həkimləri yetişdiririk. Ancaq rezidentura üçün digər ölkələrə getdikdə, orada həkim-mütəxəssis kimi yetişdiyi zamanda onların geri dönməsi problemləri meydana çıxır. Ümumiyyətlə, hazırda olan həkim kadrlarının müxtəlif həm maddi təminat, həm də regionlarda yaşayış şəraitinə daha güzəştli şərtlər təklif etməklə bu prosesdən istifadə etmək olar. Müxtəlif səbəblərdən böyük şəhərlərdə öz iş yerlərindən ayrılmış həkimləri bu prosesə cəlb etmək lazımdır. Həmçinin, yeni yetişən gənc həkimlərin regionlarda işləməsini stimullaşdırmaq lazımdır.

***-Struktur islahatlarının aparılması hər zaman aktual məsələdir. Qarşıdakı dövrdə də bunun davam edəcəyi gözlənilir. Belə ki, bir sıra qurumların birləşdirilməsi, digərlərinin isə müasir tələblərə uyğun şəkildə yenidən formalaşdırılması nəzərdə tutulur. Bu baxımdan TƏBİB Səhiyyə Nazirliyinə birləşdirilə bilərmi?***

-Struktur islahatlarına gəldikdə, bu proses ali icra hakimiyyəti orqanı tərəfindən həyata keçirildiyinə görə bu barədə qanunverici orqanın nümayəndəsinin hansısa şərh bildirməsi bir qədər proqnoz xarakterli ola bilər. Ona görə bu məsələ hökumət və ali icra orqanlarının rəhbərliyi tərəfindən həyata keçirildiyinə görə bunu artıq zaman göstərəcək.

***-Onkoloji xəstəliklərin müayinə və müalicəsi nə zaman icbari tibbi sığorta zərfinə əlavə edilə bilər?***

-Hazırda onkoloji xəstəliklərin müayinə və müalicəsi dövlət proqramları ilə tənzimlənir. Burada həm vəsaitin çoxluğu, həm də İcbari Tibbi Sığorta Fondunun vəsaitlərinin tədricən artımı, həmçinin, proseslər təkmilləşmə mərhələsinə getdikcə bu xidmətlərin icbari tibbi sığorta çərçivəsində göstərilməsi nəzərə alınıb. Yaxın müddət ərzində dövlət proqramları ilə bu prosesin tənzimlənməsi daha məqsədə müvafiq hesab olunur. Ölkənin qarşısında duran digər iqtisadi məsələlərin həlli ilə paralel şəkildə əmək müqavilələrinin ağardılması, İcbari Tibbi Sığorta Fondunda vəsaitin tədricən artımı ilə bu proseslər də digər dövlət proqramları kimi icbari tibbi sığorta çərçivəsində nəzərdə tutulub. İqtisadi proseslərin analizi, icbari sığorta sisteminin dəyərləndirilməsi onu göstərir ki, bu bir qədər sonrakı müddət üçün nəzərdə tutulub.

***Anar Kəlbiyev***

# Elman Rüstəmovun biznesinə daha bir təhlükə

## Sabiq baş bankirə aid olduğu deyilən bankda nə baş verir? - Maraqlı təfərrüatlar...

***Mətbuatda tez-tez Azərbaycan Mərkəzi Bankının (AMB) sabiq sədri Elman Rüstəmovun bankı kimi təqdim olunan "Bank Respublika"nın 2025-ci ilin ilk doqquz ayı üzrə maliyyə hesabatı açıqlanıb. "AzPolitika" xəbər verir ki, hesabatdan və göstəricilərin ötən ilki dövrlə müqayisəsindən bankın ciddi problemlərinin olduğu qənaəti yaranır. Belə ki, hesabata görə, bankın vaxtı keçmiş problemli kreditləri ötən ilin müvafiq dövrü ilə müqayisədə birdən-birə iki dəfə artıb. 2025-ci ilin 9 ayına görə vaxtı keçmiş kreditlərin həcmi 19 milyon 667,26 min manat olub. Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfə çoxdur.***

Qeyd edək ki, adətən banklar hər zaman problemli kreditlərin həcmini rəsmi hesabatlarında real göstəricidən xeyli aşağı göstərməyə çalışırlar. Çünki məhz problemli kreditlərin çoxluğu istənilən bankın tənəzzülünün, böhranının ilkin, əsas əlaməti sayılır. Əgər belədirsə, sözügedən bankda



hətta rəsmi hesabata görə belə problemli kreditlərin kəskin şəkildə, sürətlə artması təhlükəli tendensiya kimi görünür. Bu, həmçinin bankın kredit siyasətinin qüsurlu olduğu və özünü doğrultmadığı qənaəti yaradır.

Görünür, bu siyasətin nəticəsidir ki, bankın faiz xərcləri də sürətlə artır. Belə ki, 2025-ci ilin 3 rübündə bank 90 milyon 839 min manat faiz ödənişi həyata keçirib. Bu, ötən illə müqayisədə 43,76% çoxdur. Xüsusilə cəlb edilmiş kreditlərə görə ödənilən faizlər 3 dəfə artaraq 46 milyon 214 min manata çatıb. Bu, bankın maliyyə yükünün və borclarının kəskin artdığını göstərir. Özü də maraqlıdır ki, bütün bunlar bankdan ciddi əmanət axını fonunda baş verir. Belə ki, ilk 9 ayda fiziki şəxslərin bankdakı əmanətləri kəskin azalıb, bankdan xeyli vəsait çıxarılıb.

2024-cü ilin müvafiq dövründə fiziki şəxslərin yerləşdirdiyi depozitlərin həcmi 649 milyon 867 min manat olduğu halda, 2025-ci ilin eyni dövründə bu göstərici 50 milyon manata yaxın - 47.4 milyon manat azalaraq, 602 milyon 476,18 min manat təşkil edib. Bu, 7,3% azalma deməkdir.

Yəni bir yandan banka cəlb edilən əmanətlərin məbləği azalır, digər yandan əmanət faizlərinə görə ödənilən məbləğ artır. Bu isə əlbəttə ki, ürəkaçan mənzərə sayıla bilməz. Özü də əmanətlərin azalması təkcə fiziki şəxslərlə bağlı deyil. Bankın nağd pul vəsaitləri də əhəmiyyətli şəkildə azalıb. Ötən ilin sonu ilə müqayisədə bu göstərici 175 milyon 432,19 min manat və ya 32,2% azalaraq 368 milyon 841,63 min manat təşkil edib. Əvəzində, bankın ümumi öhdəlikləri - borcları ötən ilin sonu ilə müqayisədə 25,74% artaraq 2 milyard 487 milyon manata çatıb. Bu artım əsasən kredit təşkilatları və digər maliyyə institutları qarşısında yaranan borclar hesabına baş verib. Belə ki, bu öhdəliklər 2024-cü ildə 520 milyon 649,73 min manat olduğu halda, 2025-ci ildə 864 milyon manata çatıb. Bu da 343 milyon manat və ya təxminən 66% artım deməkdir. Bu da bankın maliyyə vəziyyəti və öhdəlikləri barədə müəyyən nəticələr çıxarmağa əsas verirg

Xatırladaq ki, adıçəkilən bankın Elman Rüstəmova bağlılığı barədə ölkə mediası illərdir yazır. Düzdür, "Bank Respublika"nın əsas səhmdarları iş adamı Natiq Quliyev və onun ailə üzvləridir, lakin yerli KİV Quliyevləri daha çox sabiq baş bankirin şəxsi biznesinin idarəçiləri kimi təqdim edirlər. Hərçənd, illər öncə N.Quliyev "Bank Respublika" ilə E.Rüstəmov arasında bağlılığı inkar edib. Bununla belə, özünün Elman müəllimlə yaxşı münasibətlərinin olduğunu gizlətməyib.

Onu da deyək ki, bir neçə həftə öncə sabiq baş bankirə məxsus şirkətlərin ləğv edilməyə başladığı barədə məlumat vermişdik. Bildirmişdik ki, həm "Əkinçi-Bo Fermer Təsərrüfatı" MMC, həm də "Qarabağ Taxıl Aqro" MMC rəsmi olaraq ləğv olunduqlarını elan etmişdilər. Onu da yazmışdıq ki, mediada açıqlanan və təkzib olunmayan məlumatlara görə, ləğv edilən hər iki şirkətin təsisçisi "Səba" ASC-dir. Bu ASC isə məhz E.Rüstəmovun biznes imperiyasına aid olunur.

Əlavə etmişdik ki, 1995-2022-ci illərdə Mərkəzi Bankın rəhbəri olmuş Elman müəllim bu vəzifə ilə vidalaşdıqdan sonra onun şəxsi biznesi ciddi çətinliklərlə qarşı-qarşıyadır. Düzdür, o, hazırda Baş nazirin müşaviridir, lakin Rüstəmovun indiki postu nüfuz və təsir imkanları baxımından öncəki vəzifəsi ilə müqayisəyə gəlmir, yəqin ki, elə ona görə də sabiq baş nazir xeyli müddədir yuxarıda vurğuladığımız problemləri aradan qaldırmağa çətinlik çəkir...

**Sənan Mirzə**

# Əziz Orucov azadlığa çıxdı



***"Kanal 13" internet televiziyasının rəhbəri Əziz Orucov azadlığa çıxıb.***

"Unikal" APA-ya istinadən xəbər verir ki, Əziz Orucovun cəza müddəti bu gün bitib və o, Ədliyyə Nazirliyinin 16 saylı cəzaçəkmə müəssisəsindən azadlığa buraxılıb.

Qeyd edək ki, Əziz Orucov 27 noyabr 2023-cü ildə saxlanılıb. Səbail Rayon Məhkəməsinin hökmünə əsasən, Əziz Orucov 2 il müddətə azadlıqdan məhrum edilib. Bakı Apellyasiya Məhkəməsi və Ali Məhkəmə aşağı instansiya məhkəməsinin hökmünü dəyişdirmədən saxlayıb.

Ə.Orucova qarşı əvvəlcə Cinayət Məcəlləsinin 188.2-ci (qanunla müəyyən edilmiş mülkiyyət, istifadə və ya icarə hüququ olmadan torpaq sahəsi üzərində özbaşına tikinti) maddəsi ilə cinayət işi açılıb. Daha sonra Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə əlavə ittiham irəli sürülüb.

İstintaq dövründə 206.3.2-ci (qaçaqmalçılıq-qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi üzrə cinayət işinə xitam verilib.

# MÜSİAD Azərbaycanla TÜRKPA arasında görüş keçirildi



***MÜSİAD Azərbaycan İctimai Birliyi və Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) arasında görüş keçirilib.***

Görüşdə MÜSİAD Azərbaycan İdarə Heyətinin sədri Rəşad Cabirli, İdarə Heyəti üzvləri və Türk Dövlətləri Parlament Assambleyasının yeni Baş katibi cənab səfir Ramil Həsən iştirak ediblər.

Rəşad Cabirli görüşdə çıxışı zamanı MÜSİAD Azərbaycanın fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr və 2026-cı ildə Qarabağda təşkil edilməsi planlaşdırılan Türk Dünyası Biznes Forumu haqqında ətraflı məlumat verib. O, MÜSİAD-ın TDT-yə üzv bütün ölkələrdə filiallara sahib olmasının bu istiqamətdə real nəticələrin əldə olunmasına mühüm töhfə verdiyini vurğulayıb.

Səfir Ramil Həsən isə öz növbəsində, TÜRKPA-nın dörd daimi komissiyasının üzv dövlətlər arasında parlament əməkdaşlığının təşviq olunmasında əsas institusional mexanizm kimi strateji rol oynadığını qeyd edib. O, həmçinin MÜSİAD-ın təşəbbüslərini yüksək qiymətləndirərək, Türk İnvestisiya Fondunun ortaq iqtisadi layihələri dəstəkləyən aparıcı regional maliyyə aləti kimi artan əhəmiyyətini vurğulayıb və Assambleya ilə Fond arasında mövcud sıx və səmərəli əməkdaşlıqdan danışıb.

Görüşdə Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əməkdaşlıq perspektivləri geniş şəkildə müzakirə olunub. Qeyd edilib ki, TÜRKPA Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan parlamentlərini birləşdirən mühüm beynəlxalq qurumdur və Türk dövlətləri arasında qanunvericilik əməkdaşlığının, institusional inteqrasiyanın və ortaq təşəbbüslərin gücləndirilməsi missiyasını daşıyır.

Müzakirələr zamanı tərəflər biznes assosiasiyaları ilə TÜRKPA-ya üzv dövlətlər arasında əməkdaşlığın genişləndirilməsi və bu istiqamətdə praktiki əməkdaşlıq mexanizmləri barədə fikir mübadiləsi aparıblar.

Bu görüş Türk dünyasında parlamentarizm, iqtisadi əməkdaşlıq və institusional tərəfdaşlıq baxımından mühüm addım kimi qiymətləndirilir.

MÜSİAD Azərbaycan İdarə Heyətinin sədri Rəşad Cabirli MÜSİAD Azərbaycan adından Ramil Həsəni mühüm vəzifəyə seçilməsi münasibətilə təbrik edib və ona gələcək fəaliyyətlərində uğurlar arzu edib.

45_27 IYUI-QARA.qxd 11/27/2025 11:37 PM Page 9





## Azərbaycan deputatları Qırğızıstanda seçkiləri müşahidə edəcəklər

***Deputatlarımız Qırğız Respublikasında növbədənkənar parlament seçkilərini müşahidə edəcəklər.***

"Unikal" xəbər verir ki, Milli Məclisin deputatları Tural Gəncəliyev, Cavanşir Feyziyev, Mübariz Qurbanlı və Göydəniz Qəhrəmanov noyabrın 30-da Qırğız Respublikasında keçiriləcək növbədənkənar parlament seçkilərini müşahidə etmək üçün bu ölkənin Bişkek şəhərində səfərdə olacaqlar.

Tural Gəncəliyev ATƏT PA-nın xətti ilə, Cavanşir Feyziyev TÜRKPA -nın xətti ilə, Mübariz Qurbanlı MDB İcraiyyə Komitəsinin xətti ilə, Göydəniz Qəhrəmanov isə MDB PA-nın xətti ilə seçkilərə hazırlığın vəziyyəti ilə tanış olacaq, səsvermə prosesini müşahidə edəcəklər.

## Dövlət xəttilə 371 milyon manat ipoteka krediti verilib



***Bu ilin yanvar-oktyabr aylarında İpoteka və Kredit Zəmanət Fondunun (İKZF) xətti ilə 371,3 milyon manat kredit verilib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 % azdır.

Hesabat dövründə Fondun yenidən maliyyələşdirdiyi kreditlərin məbləği isə 7,3 % azalaraq 351 milyon manat olub.

İl ərzində İKZF-nin istiqraz buraxmaqla cəlb etdiyi vəsaitin məbləği 22,2 % artaraq 550 milyon manata çatıb, Fonda dövlət büdcəsindən ayrılmış vəsaitin məbləği isə 2,7 % azalaraq 63,9 milyon manata düşüb.

## Qeyri-etik paylaşımlar edən tiktoker həbs edildi

***"TikTok" sosial şəbəkəsində cəmiyyətə qarşı hörmətsizlik və qeyri-etik paylaşımlar edən, eləcə də narkotiklərin qəbulunu təbliğ edən videolar yayan 1992-ci il təvəllüdlü Elsevər Nəbiyev polis əməkdaşları tərəfindən saxlanılıb.***

Həmin şəxs "Eliş 020" adlı səhifəsində canlı yayım açaraq narkotik vasitənin təsiri altında qeyd edilən paylaşımları edib. E.Nəbiyev saxlanılan zamanı ondan psixotrop maddə olan metamfetamin də aşkarlanıb.

Faktla bağlı Nəsimi Rayon Polis İdarəsində cinayət işi başlanılıb və E.Nəbiyev təqsirləndirilən şəxs qismində istintaqa cəlb edilməklə barısində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Qeyd edək ki, E.Nəbiyev bundan əvvəl də oxşar əməllərə görə dəfələrlə həbs edilib.

# Deputatdan dərman monopolistlərini belə güldürən "sərt tənqid"

## Həftənin replikası: Dərman qiymətlərindəki soyğunçuluq, keyfiyyətindəki şübhələr qalıb bir tərəfdə, görün nə müzakirə olunur...

***Bu günlərdə Milli Məclisdə taleyüklü məsələ qaldırılıb. Deputat Səyyad Salahlı gülə-gülə qayıdıb deyəsən ki: "Seçicilərim mənə dərmanların təlimatlandırıcı içlik vərəqini verirblər. Qəzet yazırsınız?! Bu qədər izahat olar?"***

"Dövlət sosial müdafiə fondunun və İşsizlikdən sığorta fondunun 2026-cı il büdcəsi haqqında" qanun layihələrinin müzakirəsi zamanı deputat onu da qeyd edib ki: "Biz hamımız bilirik ki, aptekdən dərman alanda əczaçıya deyirik, bunu neçə dəfə qəbul edəcəyimi onun üstünə yaz. Dərmanla bağlı görün nələr yazır, bunu o xəstə oxuyandı?! Bunun əsəbləri onsuz da korlanıb, çoxu da yaşlı adamlardır".

Spiker Sahibə Qafarova deputatın fikirlərinə münasibət bildirib: "Səyyad müəllim, orada bir az yazılsa, deyəcəksiniz ki, niyə o söz yazılmayıb. Siz nə danışırsınız? Dünyada qəbul edilmiş təcrübə var ki, dərman vasitəsilə bağlı mütləq qutunun içində izahat olur. Başqa cür də ola bilməz".

Səyyad Salahlı sözünə davam edərək söyləyib ki, həmin fikirləri o yox, vətəndaşlar deyir: "Bunları mənə camaat verir. Bu, mütəxəssislər, həkimlər üçündür ki, istiqamət götürüb xəstəyə yol göstərsinlər. Bunlar xəstəyə lazım deyil, heç kim oxumur. Camaat bunu oxuyanda başa düşməlidir, xalq dilində olmalıdır. Əgər sən bunu dərman qutusunun içinə qoyub xəstəyə satırsansa, onun başa düşə biləcəyi dildə danış".

Spiker yenidən deputatın çıxışı ilə bağlı qeyd edib ki, həkimlər hər bir dərman vasitəsilə bağlı xəstəni məlumatlandırır: "Deyirsiniz ki, gərək xalqın dilində olsun. Həkim hər bir regionun dialekti ilə xəstəyə başa salır ki, dərmanı bir və ya iki dəfə iç".

Açığını söyləmək lazımdırsa, Səyyad Salahlının gülərək qaldırdığı, sonra da ciddi tonda müzakirəyə çıxardığı məsələyə bizim də dodaqlarımız qaçdı, ancaq şübhə eləmirik ki, hətta dərman monopolistlərimiz belə şaqqanaq çəkib, qəşş ediblər. Niyə də yox?! Dərman qiymətlərindəki soyğunçuluq, eləcə də dərman məhsullarının keyfiyyəti ilə bağlı dərin şübhələr bir tərəfdə qalır, müzakirəyə təlimatlandırıcı içliklərin uzunluğu çıxarılırsa, bundan gülməli, üstəlik, inhisarçıların ürəyindən xəbər verən başqa nə ola bilər?

Bəlkə, Səyyad müəllim xəbərsizdir, ona görə də xatırladaq: bir neçə ildir vətəndaşlar sosial şəbəkələrdə, ekspertlər KİV-də, ictimai müzakirələrdə anormal bir durumdan danışırlar - təsəvvür edin, məsələn, Türkiyədə cəmi-cümlətanı 23 manata olan dərman Azərbaycanda 75-80 manata, Rusiyada 5-6 manata olan dərman Azərbaycanda 30 manata satılır! Bu qədər kəskin qiymət fərqinin səbəbi nədir? Kimlər vətəndaşın sağlamlığı hesabına qaz vurub qazan doldurur, onun cibinə girir və ən əsası da aidiyyatı qurumlar bu göz-görəti soyğunçuluğa niyə, hansı maraqla göz yumur?!

Yaxud onkoloji xəstələrin müalicəsi dövlət hesabına aparılmalı olduğu halda, bu gün ölkədə yüzlərlə belə xəstə borca, sələmə girib, ev-eşiyini, qiymətli əşyalarını satıb müalicə olunmaq məcburiyyətində qalıb. Bir müddət əvvəl həm özü, həm də həyat yoldaşı onkoloji xəstə olan Şəfiqə Məmmədova adlı vətəndaş "Həkimlər pulsuz resept yazmır. Mənim qalxanvari vəzim çıxarıldığı üçün hormonal dərmanlar, kalsium preparatları almalıyam. Bizdə yaxşı dərman yoxdur. Dərmanı heç kim vermir. Özüm əczaçıyam deyə hansı dərmanın yaxşı olduğunu bilirəm. Əvvəllər quru yolu açıq olanda Türkiyədən, İrandan gətirirdilər, alırdıq. İndi bu yol da bağlanıb. Keyfiyyətli dərmanlar bahadır. Onları da xəstə özü almalıdır. Heç kimin marağında deyil ki, qeydiyyata alınan bu xəstə neynir? Müalicə alırmı, dərmanı var, sağdır, ya ölüb? Onkoloji xəstələr yiyəsizlikdən, diqqətsizlikdən ölür" deyə fəryad etmişdi. Bu cür ah-nalə, fəryad sahibləri bu gün Azərbaycanda minlərlədir. Hörmətli Səyyad müəllim millətin vəkili olaraq bu cür daha önəmli məsələləri gündəmə gətirə bilməzdimi?

Və ya Respublika Endikronoloji Mərkəzinin əvvəlki rəhbərliyinin yol verdiyi korrupsiya əməllərinin bədəlini aylardır birinci tip şəkər xəstəsi olan minlərlə uşaq ödəyir. Belə ki, həmin uşaqlara (1-18 yaş arası) dövlət hesabına verilən sensor əsaslı qlükoza monitorinq sistemi "Sibionics" cihazı artıq verilmir. Aylardır valideynlər bununla bağlı TƏBİB-ə, Səhiyyə Nazirliyinə müraciət edirlər, lakin onların şikayətini eşidən yoxdur. Bununla bağlı "Unikal" olaraq bir neçə dəfə yazı dərc etmişik, məsələ KİV-də, sosial şəbəkələrdə ictimailəşib, lakin nə Respublika Endikronoloji Mərkəzindən səs çıxır, nə də səhiyyə qurumlarından! Heç deputatlarımız da bununla bağlı məsələni parlamentin gündəminə gətirməyiblər. Əvəzində isə ikinci-üçüncü dərəcəli məsələ - dərmanlarla bağlı təlimatlandırıcı içliklərin uzunluğu müzakirə edilir.



Biz də uzunçuluq etmək istəmirik, sadəcə onu bilmək istəyirik ki, doğrudanmı, dərmanlarla bağlı yuxarıda toxunduğumuz üç vacib, taleyüklü məsələyə dair deputatlar öz seçicilərindən bir dənə belə şikayət eşitməyiblər, müraciət almayıblar? Eşitməyiblərsə, almayıblarsa belə, doğrudanmı, onların sadaladığımız problemlərin aktuallığından, ciddiliyindən, cəmiyyətdə narazılıq və narahatlıq yaratmağından da xəbəri yoxdur?

Həqiqətən, yoxdursa, daha bizim də sözümüz yoxdur.

Əgər varsa, onda hətta dərman monopolistlərini belə qımışdıran, rahatlaşdıran bir məsələnin müzakirəsinə nə hacət? Müzakirəyə problemin yekəsindən başlamaq daha düzgün, daha məntiqli olmazdımı?!

***Sənan Mirzə***

# Mehdiyevlərin “özəl klinika biznesi”nin sonu

## "German Hospital" fəaliyyətini dayandırır, sırada digərləri var - İlginc detallar

***Bakıda fəaliyyət göstərən “German Hospital” yaxın günlərdə fəaliyyətini dayandıracaq. Klinika Prezident Administrasiyasının sabiq rəhbəri, hazırda dövlət çevrilişinə cəhd və vətənə xəyanət ittihamları ilə istintaqa cəlb edilən, haqqında dörd aylıq ev dustaqlığı qərarı verilən Ramiz Mehdiyevin vaxtilə deputat olmuş kürəkəni İlham Əliyevə məxsusdur.***

Məlumata görə, son aylar hospitalın fəaliyyəti ciddi şəkildə zəifləyib. Bəzi həkimlər və əməkdaşlar işdən çıxarılıb, bir neçə şöbə isə faktiki olaraq xidmət göstərmir.

“Qeyd olunur ki, klinikanın adı son vaxtlar istintaqla əlaqədar materiallarda da hallanıb. İlham Əliyevin biznes fəaliyyətinin araşdırıldığı, onunla bağlı maliyyə əməliyyatlarının yoxlanıldığı iddia edilir”- “Bakupost”un əldə etdiyi məlumatda daha sonra deyilir.




Bütün bunların fonunda “German Hospital”ın bağlanması barədə xəbərin yayılması təəccüblü deyil.

Hospitalın rəsmi saytında (germanhospital.az) və sosial şəbəkə səhifələrində bağlanma ilə bağlı heç bir məlumat yerləşdirilməyib. Lakin artıq bəzi əlaqə nömrələrinin cavab vermədiyi, həkimlərin başqa klinikalara keçdiyi bildirilir.

Xatırladaq ki, “German Hospital” 2010-cu ildə Bakı şəhərində fəaliyyətə başlayıb. Klinika doğum, cərrahiyyə, LOR, qastroenterologiya və plastik-estetik xidmətlər üzrə tanınırdı.

Ramiz Mehdiyevin kürəkəni İlham Əliyev uzun illər Azərbaycanda səhiyyə və tikinti biznesi ilə məşğul olmuşdu. Bu günlərdə sabiq deputatın hazırda ”Qala-R.L” MTK, ”NLT” MMC, ”Premium Store” MMC, ”Servis” Mənzil-Tikinti Kooperativi, ”E&S” MMC, ”Aqua Safe”, ”Dry Tech”, ”Aqua Safe H2O” MMC və digər adda şirkətlərinin olduğu açıqlanmışdı. Onun adı həm də bir sıra kommersiya layihələrində, o cümlədən “German Hospital”ın təsis sənədlərində keçir.

Bakı şəhərində fəaliyyət göstərən “German Hospital” son illərdə bir sıra qalmaqallarla gündəmə gəlib. Müxtəlif şəxslərin, o cümlədən məşhurların bu klinikadan şikayət etməsi, ictimai narazılıq dalğasını formalaşdırıb. Klinikaya qarşı yönələn iddialar arasında həkim səhlənkarlığı, gigiyenik qaydaların pozulması, müalicə zamanı ölüm halları, analiz nəticələrinin təqdim edilməməsi, hətta əməliyyat zamanı doğum günü qeyd edilməsi kimi hallar mövcuddur.

Məşhur müğənni Roza Zərgərli bu klinikada əməliyyat zamanı səhlənkarlıq nəticəsində daxili orqanlarının zədələndiyini iddia edib. Əkiz uşaqların ölümü ilə bağlı valideynlərin şikayətləri isə ictimaiyyətdə dərin rezonans doğurub.

2015-ci ildə 29 yaşlı İlahə Musazadə həmin vaxt adı “Astoriya” Tibb Mərkəzi olan “German Hospital”da (bu klinika bir müddət məhz o adla fəaliyyət göstərib) doğuş zamanı dünyasını dəyişib. Xəstənin yaxınlarının dediyinə görə, təbii yolla baş verən doğuşu ağrısız etmək ucun xəstə anesteziya olunub. Bu zaman onun halı pisləşib və ürəyi dayanıb.

Yusif Sadiyev adlı vətəndaş 2018-ci ildə, ”German Hospital”da əkiz uşaqlarının dünyaya gəldiyini deyib. Əvvəlcə Hospitaldan doğulan uşaqların yaxşı olduğu bildirilib. Lakin, ailəyə uşaqlarla bağlı analizin cavabı göstərilməyib. 3 gün sonra isə həkimlər uşaqlardan birinin ölü doğulduğunu deyib.

Başqa bir şikayətçi, paytaxt sakini Türkan Bayramova ötən ilin aprelində yerli mətbuata bildirib ki, ”German Hospital”ın həkimi Zeynəb Şaqidulinanın səhlənkarlığı nəticəsində həyatı, demək olar ki, məhv olub. Şikayətçinin iddiasına görə ana olmaq imkanından məhrum olunub və sağlamlığıma ağır zərər vurulub.

Digər bir şikayətçi isə Vüsal Zeynalovdur. O, ”German Hospital”ın qarşısında canlı yayım açaraq göz görə-görə həyat yoldaşının bu hospitalda ölümə sürükləndiyini deyib.

Ən səs-küylü hadisələrdən biri isə bu ilin əvvəlində baş verib. Belə ki, əməliyyat otağında bir həkimin doğum gününün qeyd edilməsi və bunun video şəklində sosial mediada yayılması gigiyena standartlarının ciddi şəkildə pozulması kimi qiymətləndirilib.

Bir sözlə, özü vətəndaşların, sahibi isə dövlətin və xalqın yanında etibarını itirən qalmaqallı “German Hospital” üçün yolun sonu artıq görünməkdədir.

Onu da deyək ki, 2022-ci ildə Ramiz Mehdiyevə məxsus olan biznes subyektlərindən biri kimi başqa bir özəl tibb müəssisənin - “Bakı” klinikasının (“Baku Clinic”) adı çəkilmişdi. Həmin vaxt klinika rəhbəri qəza törətmişdi və bu faktla gündəmə gələn Aytən Quliyevanın üzərindən “Bakı”nın Mehdiyevə aid olduğu iddiaları səslənmişdi. Lakin o zaman Mehdiyevin hələ rəhbər olduğu Milli Elmlər Akademiyasından (AMEA) bu xəbər təkzib edilmişdi. Yəni klinikanın Ramiz Ənvəroviçə məxsus olmadığı bildirilmişdi. Bununla belə, bəzi KİV-lər “Bakı” klinikasının qeyri-rəsmi şəkildə Mehdiyevə bağlılığını israrla vurğulamışdılar.

Əgər yerli medianın bu iddiaları doğrudursa “German Hospital”dan sonra “Baku Clinic”in də aqibəti maraq doğurur.

***Toğrul Əliyev***



# Vəfat edən şəxsin pensiya kapitalı varəsəyə veriləcək? - Açıqlama

***”Dünyasını dəyişən şəxsin pensiya kapitalının istifadəsi məsələsi müzakirə edilən məsələlərdəndir”.***

Bunu ”Unikal”a açıqlamasında deputat Vüqar Bayramov deyib. O bildirib ki, parlamentin Əmək və sosial siyasət komitəsinin ilk iclasında bu istiqamətdə həmkarları tərəfindən təkliflər təqdim olunub:

”Təkliflərin bir qismi həmin kapitalın 30%-nin vərəsəyə verilməsi ilə bağlı idi. Pensiya kapitalından daha səmərəli istifadə olunması və dünyasını tez dəyişən vətəndaşlarımızın pensiya kapitalının bir hissəsinin vərəsəsinə transfer edilməsi məqsədəuyğun hesab olunur. Təbii ki, bu istiqamətdə fiskal qiymətləndirmə aparılmasına ehtiyac var. Maliyyə qiymətləndirilməsi aparıldıqdan sonra bu istiqamətdə qərarların verilməsi mümkündür. Bütün hallarda bununla bağlı təkliflər təqdim edilib”.

Deputat qeyd edib ki, bu sahəyə aid qurumlar tərəfindən qiymətləndirmə aparıldıqdan sonra hansı qərarın veriləcəyi ilə bağlı aydınlıq yaranacaq: ”Bir sıra ölkələrin, eləcə də Sinqapurun təcrübəsini nəzərə alsaq, pensiya kapitalının bir hissəsindən istifadə imkanlarının verilməsi, xüsusilə dünyasını tez dəyişən vətəndaşlarımızın pensiya kapitalının vərəsəsinə transfer imkanlarının yaradılması məqsədəuyğundur. Dövlət Sosial Müdafiə Fondunun dayanıqlığını qorumaq şərtilə qiymətləndirmənin aparılması və ona uyğun qərar verilməsini məqsədəuyğun hesab edirik”.

***Anar Kəlbiyev***

# Bu bağçalarda valideynlərdən əlavə ödənişlər tələb olunmayacaq



***Qrant müqavilələrinin icrası başlandıqdan sonra müvafiq cədvəldə göstərilən ödənişlər elektron portal üzərindən həyata keçiriləcək və valideynlərdən əlavə ödənişlərin tələb olunmasına yol verilməyəcək.***

Bu barədə ”Unikal”a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, 63 özəl məktəbəqədər təhsil müəssisəsi Elm və Təhsil Nazirliyi tərəfindən elan olunan özəl məktəbəqədər təhsil müəssisələri üçün qrant müsabiqəsinin qalibi olub və qalib gəlmiş özəl bağçalarla qrant müqavilələri imzalanıb: ”Həmin qrant müqavilələrinə görə Azərbaycan bölməsində təhsil alan uşaqların aylıq təhsil haqqı və valideyn tərəfindən ödəniləcək məbləğlə müvafiq link vasitəsilə tanış ola bilərlər.

Nəzərinizə çatdırırıq ki, qrant müqavilələrinin icrası başlandıqdan sonra müvafiq cədvəldə göstərilən ödənişlər elektron portal üzərindən həyata keçiriləcək və valideynlərdən əlavə ödənişlərin tələb olunmasına yol verilməyəcək.

Valideynlər müvafiq cədvəldə qeyd edilmiş təhsil haqlarından kənar hər hansı ödəniş tələbi ilə üzləşildiyi halda, Elm və Təhsil Nazirliyinin 146 Çağrı Mərkəzinə məlumat verə bilərlər.

Vurğulayırıq ki, qrant müsabiqəsi üzrə bütün məlumatların tam şəffaflıqla ictimaiyyətə təqdim edilməsi davam etdiriləcək”.

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:38 PM Page 11





## Rəşad Nəbiyev: "Zəngəzur dəhlizi dayanıqlı əlaqə yaradacaq"

***Rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizi Forumunda Mərkəzi Asiya, Cənubi Qafqaz və Qara Dəniz Regionu üzrə Əhatəli Əlaqələndirmə Gündəliyi panelində iştirak edib.***

Bu barədə R.Nəbiyev öz sosial şəbəkə hesabında paylaşım edib.

"Böyük dəhliz layihələrində əsas maneələrin sərhəd standartlarının fərqli olması, rəqəmsallaşmanın yetərsizliyi və infrastruktur çatışmazlıqları olduğunu qeyd etdik. Azərbaycanın strateji mövqeyi, sabitliyi və iqtisadi diversifikasiyası ilə etibarlı və cəlbedici investisiya məkanı olduğunu vurğuladıq. Həmçinin Zəngəzur dəhlizinin Avropa ilə Mərkəzi Asiya arasında dayanıqlı, sürətli və sərfəli əlaqə yaradacağını, Orta Dəhlizin isə region üçün davamlı və effektiv model kimi inkişaf etdirildiyini qeyd etdik", - deyə nazir bildirib.

## Azərbaycanda uşaqlara ən çox qoyulan adlar açıqlandı

***Azərbaycanda 2025-ci ilin ötən dövrü ərzində (yanvar-noyabr aylarında) uşaqlara ən çox verilən oğlan və qız adlarının siyahısı müəyyənləşib.***

"Unikal" xəbər verir ki, barədə məlumat Ədliyyə Nazirliyinin adlar üzrə statistikasında yer alıb.

Statistikaya görə, bu il ölkə üzrə oğlan və qızlara ən çox Uğur, Melisa adları verilib.

Oğlanlara verilən adlarla bağlı statistika belədir: Uğur (1569),Raul (1166), Əli (1028), Hüseyn (1050), Yusif (986).

Qız adları: Melisa (1073), Zeynəb (1015), Məryəm (1014), Nilay (993), Aylin (964), Zəhra (942), Fatimə (715).

Son beş ilin statistikasına görə yenə də "Uğur" adı birinci yerdədir. Belə ki, son beş ildə 8721 nəfər uşağa bu ad verilib. Qız adları arasında isə Zəhra adı birinci yerdədir. Son beş ildə 7273 nəfər qıza Zəhra adı verilib.

## Bankların aktivləri 13%-dən çox artıb

***2025-ci ilin noyabr ayının 1-nə Azərbaycanın bank sektorunun aktivləri 56 milyard 341.8 milyon manat təşkil edib.***

"Unikal" Azərbaycan Mərkəzi Bankına istinadən xəbər verir ki, bu, ötən ilin noyabr ayının 1-i ilə müqayisədə 13.4% çoxdur.

Bankların aktivlərinin 29 403.9 milyon manatını müştərilərə verilmiş kreditlər təşkil edib. Son 1 ildə sektorun kredit portfeli 8.6% böyüyüb, kreditlərin aktivlərdəki payı isə 54.5%-dən 52.2%-ə enib.

Hesabat dövründə, bank sektorunun öhdəlikləri illik müqayisədə 13.7% artaraq 49 182 milyon manat olub. O cümlədən sektorun depozit portfeli 4.9% artaraq 36 062.9 milyon manata çatıb. Bunun 15 549 milyon manatı fiziki, 20 513.9 milyon manatı isə hüquqi şəxslərin depozitləridir. İl ərzində əhalinin banklardakı vəsaitləri 11.3%, şirkətlərin banklardakı vəsaitləri isə 0.54% artıb.

Bank sektorunun balans kapitalı isə 11.1% artaraq 7 159.9 milyon manat təşkil edib.

# Sabiq nazirin oğlu ilə bağlı yarım milyon manatlıq iddia

## Böyük məbləğli tenderlər udan şirkətlə bağlı müəmmalar davam edir - Zibil qablarından mövsümi güllərədək!



***Siyəzən Rayon İcra Hakimiyyəti (RİH) Siyəzən şəhərinin küçə və məhəllələrində görüləcək abadlıq işləri satın alınması ilə bağlı tenderə yekun vurub. "Qaynarinfo" yazıb ki, tenderin qalibi "Safari" MMC seçilib. Abadlıq işlərinə görə, şirkətə 520 028,67 manat ödəniləcək.***

Araşdırmalarımız nəticəsində məlum oldu ki, adıçəkilən MMC Azərbaycanda bir çox şəhər və rayonların icra hakimiyyətlərinin, az qala, sevimli şirkətidir. Məsələn bu ilin yayında həmin MMC Sumqayıtda "Abadlaşdırma xidmətləri haqqının ödənilməsi" maddəsi üzrə məişət tullantılarının yığılması məqsədilə dəmir konteynerlərin satınalınması üçün tenderi udub. Həmin tenderin məbləği 800 min manata yaxın olub, daha dəqiq desək, 798.624 manat təşkil edib. Bundan əvvəl isə Xaçmaz Rayon İcra Hakimiyyətinin "Yaşıllıqların salınması işlərinin satınalınması" ilə bağlı elan etdiyi tenderin qalibi də "Safarı"olub. Tərəflər arasında 229.380,2 AZN dəyərində müqavilə bağlanacağı açıqlanıb. O da məlum olub ki, tenderə əsasən şirkət sözügedən RİH üçün tuya ağacı, arizona şam ağacı, leylandra ağacı, Xan çinarı, Eldar şamı, qazon, eləcə də mövsümi güllər alınmalıdır.

Ümumiyyətlə, "Safari" MMC-nin udduğu tenderlərdən görünür ki, bu şirkətin fəaliyyət profilinin "çox geniş" olduğu aydınlaşır. Sumqayıtda zibil konteynerləri, Xaçmazda ağaclar, güllər almaq üçün satınalma müsabiqəsinin qalibi elan edilən şirkət, Daşkəsəndə abadlıq-quruculuq, ölkənin qərb rayonlarında təsərrüfat mallarının alınmasına dair tenderləri də udub.

Daha bir maraqlı məqam: illərdir dövlət satınalmaları ilə bağlı saysız-hesabsız müsabiqəni udan "Safari"nin rəsmi internet resursu yoxdur.

Onu da deyək ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, "Safari" MMC 23 sentyabr 2004-cü ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 20 manatdır. Şirkətin hüquqi ünvanı Qusar rayonu, Qusar şəhəri, Şərifov küçəsi, ev 23-də yerləşir. MMC-nin qanuni təmsilçisi Verdixanov Mübariz Eygün oğludur.

Açıq mənbələrdə şirkət haqqında heç bir məlumat yoxdur. Mübariz Verdixanova gəlincə, o, "tender kralı" kimi tanınır. Onun adına daha iki sirli şirkətin olması bu iddiaların doğruluğunu artırır.

Mübariz Verdixanov "Safari" MMC-dən başqa "Safari Bak Upak" MMC-nin və "Pioneer" MMC-nin qanuni təmsilçisidir.

Maraqlıdır ki, mediada "Safari Bak Upak" MMC-nin təsisçiləri kimi sabiq deputat Asya Manafovanın qardaşı Mikayıl Manafovla keçmiş ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırovun oğlu Lətif Bağırovun adı çəkilir. Bəzi iddialara görə, "Safari" MMC də adıçəkilən şəxslərin nəzarətində olan şirkətdir.

Lakin nə sabiq nazirin oğlu, nə də keçmiş deputatın qardaşı indiyədək bu istiqamətdə səslənən iddialara münasibət bildirməyiblər. Onlar KİV-də yer alan bu cür məlumatları nə təsdiq, nə də təkzib ediblər.

Xatırladaq ki, gələn ay 70 yaşı tamam olacaq Hüseynqulu Bağırov 2001-2018-ci illərdə ekologiya və təbii sərvətlər naziri postunu tutub. Hüseynqulu müəllim hazırda Qərb Universitetinin (indiki Qərbi Kaspi Universiteti) təsisçisidir.

Hüseynqulu Bağırov nazir postundan gedəndən sonra adı bir sıra qalmaqallarda hallanıb. Məsələn, onun ögey xalası oğlu Abbas Zeynalov sabiq nazir haqqında bəzi faktları mediaya açıqlamışdı. Zeynalovun sözlərinə görə, Hüseynqulu Bağırovun əsl adı Sonqulu olub, daha sonra o, öz adını dəyişdirərək Hüseynqulu edib. O bildirmişdi ki, sabiq nazirlə şərikli otel tikintisinə başlayıblar. Tikintiyə Bağırovun ögey xalası oğlu başçılıq etsə də, sabiq nazir daha sonra ondan təşkilatçılığı alıb və "mən sənin xərclədiyin 500 min dolları ödəyəcəm. Sonra isə bu işi başqasına təhvil vermişəm, ona görə də sən getʺ deyib.

Zeynalov onu da bildirmişdi ki, onun Türkiyədə və Avropadakı biznesini xanımı Liana Bağırova idarə edir.

Bir neçə il öncə bəzi KİV-lər H.Bağırovun xaricdə mülklərinin olduğu barədə siyahı yaymışdı. Sabiq nazir isə həmin vaxt mətbuata açıqlamasında bunları təkzib etmiş, lakin oğlunun Türkiyədə "kiçik bizneslə məşğul olduğu" gizlətməmişdi.

H.Bağırov yüksək dövlət postunu tutarkən mediada "fağır nazir" kimi təqdim olunurdu. Bu isə onun adının korrupsiya iddialarında və biznes işlərində az hallanması ilə izah edilirdi. Lakin eks-nazir öz vəzifəsini tərk etdikdən sonra onun barəsində həmin vaxtadək formalaşan imicinin əksinə saysız-hesabsız iddialar ortaya atıldı. Belə iddiaların çoxu da qarşı tərəfdən sükutla qarşılanıb. Elə son olaraq "Safari" MMC-nin onun oğluna bağlılığı yönündə xəbərlərə də hələlik Bağırovlardan heç bir reaksiya gəlməyib...

***Toğrul Əliyev***

**5.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Vətəndaşların bank məsələləri ilə bağlı hüquqi savadı artırılmalıdır

## Əkrəm Həsənov: "Bankların kredit borcunu maaşa yönəltməsi üçün müştəri ilə aralarında müqavilə olmalıdır"



***Son günlər bankların kredit öhdəliyi götürən və onlara zamin duran şəxslərin əmək haqqının 50 faizdən çox hissəsini kredit borcuna tutduğu barədə iddialar səslənir. Bir sıra hallarda banklardan kredit götürən şəxslər müxtəlif səbəblərdən kredit borclarını qaytara bilmirlər. Bu zaman onlar üçün zamin duran şəxslərə xəbərdarlıq edilir. Beziləri zaminlik müqaviləsinə qol çəkərkən hansı öhdəliyi üzərinə götürdüyünü bilmir.***

Amma problem bununla da bitmir. Banklar bəzən kiberdələduzluqla mənimsənilən pulların da kredit şəklində müştəridən ödənilməsini tələb edirlər.

Jurnalist Ədil Hüseynli bu günlərdə banklardan birinin kiberdələduzluqla oğurlanan pula görə müəllimin aldığı 400 manat əmək haqqının 328 manatının bank tərəfindən hər ay borc kimi tutulduğunu bildirib.

Bəs, bank kredit götürən, yaxud ona zamin duran şəxsin maaşından tuta bilərmi? Əgər tuta bilərsə nə qədər tuta bilər?

"Unikal" qəzeti bu dəfə son günlər gündəmdə olan problemin hüquqi tərəfini araşdırıb.

Bank məsələləri üzrə hüquqşünas Əkrəm Həsənov "Unikal" qəzetinə müsahibəsində deyib ki, bankların kredit borcunu maaşa yönəltməsi üçün müştəri ilə aralarında müqavilə olmalıdır. Həmsöhbətimiz deyir ki, əgər bank krediti müştərinin maaşından qanunsuz tutursa, müştəri öz iş yerinə ərizə yazmaqla maaşının başqa banka köçürülməsini təmin edə bilər.

Hüquqşunas həmçinin bildirib ki, bu zaman bank krediti kartdan məhz müştərinin çıxardığını sübut etmək üçün məhkəməyə müraciət etməlidir. Onun sözlərinə görə, əgər müştəri bank məlumatlarını üçüncü şəxsə ötürübsə bu zaman özü məsuliyyət daşıyır.

Müsahibimiz vətəndaşların bank və kredit məsələləri ilə bağlı maariflənməli olduğunu söyləyir. Bildirir ki, bəzən vətəndaşlar öz hüquqlarını bilmədiklərindən, əmək haqları banklar tərəfindən borc kimi tutulur.

Digər məqam isə zaminlərin kredit öhdəliyidir ki, Ə.Həsənov bəzən kredit götürən şəxsə zamin duranların da öz məsuliyyətlərini tam anlamadıqlarını söyləyir. O, deyir ki, bankdan kredit götürənlər üçün zamin duranlar diqqətli olmalı və bilməlidirlər ki, zamin olarkən üzərlərinə hansı öhdəliklər götürürlər:" Əgər müqavilədə hər hansı şərt yoxdursa, zamin kredit götürən şəxslə eyni dərəcədə kreditə görə məsuliyyət daşıyır. Başqa sözlə, borclu şəxs öhdəliyini yerinə yetirmirsə, bu halda zamin bu öhdəliyi yerinə yetirməlidir. Yəni bankdan kredit götürən şəxs kredit borcunu qaytarmırsa, zamin həmin borcu qaytarmalıdır. Öhdəlik zaminin üzərinə düşür. Kredit borcunu qaytarmaq üçün bank zaminin əməkhaqqının 50 faizinədək hissəsini tuta bilər".

Ekspert onu da bildirib ki, zamin olan şəxs özü bankdan kredit götürə bilər: "Əgər bank bunu riskli hesab etmirsə, zaminin gəlirləri yaxşıdırsa, kredit götürə bilər. Əgər bank zaminin kredit götürməsini riskli hesab edirsə, zaminin maaşı aşağıdırsa, bank kredit verməyə bilər. Yəni bank riskləri qiymətləndirir və ona görə qərar verir".

Onun sözlərinə görə, zamin, kredit götürən şəxslə eyni dərəcədə kreditə görə məsuliyyət daşıyır: "Burada ardıcıllıq məsələsi var. Tələb kredit götürənə birbaşa ünvanlanır. Onun borc öhdəliklərini yerinə yetirməsi ilə bağlı məsələ qaldırılır. Əgər bunlardan imtina edilərsə, müvafiq proseslər zaminə və gəlirlərinə yönəldilir. Vətəndaşlar birmənalı olaraq bilməlidirlər ki, kredit götürən şəxslə zamin eyni öhdəliklərə sahibdir".

"Proses məhkəməyə yönəldilibsə, məhkəmə borc öhdəliyinin yerinə yetirilməsi ilə bağlı mövqeyini ortaya qoyur və qərarlar qəbul edir. Proses mümkün olmadıqda, bütün məsələlər zaminə tərəf çevrilir", - o qeyd edib.

Hüquqşünas Zülfiyyə Bayramova da bildirib ki, zamin bankdan borc götürənlə birgə tam məsuliyyət daşıyır: "Yəni borclu öhdəliyini yerinə yetirməsə, zamin onu icra etməlidir. Bu məsuliyyət sadəcə əsas borcdan ibarət deyil. İş məhkəmə müstəvisinə çıxarsa, məhkəmə xərcləri də bura daxildir".

Bu məsələnin qanunla necə tənzimlənməsinə gəlincə,

hüquqşünasın sözlərinə görə, icra sənədi üzrə zaminin əməkhaqqına yönəlmə olanda bank tərəfindən 50 faizədək tutulma ola bilər: "Hətta bəzən olur ki, bir zaminin bir neçə icra vərəqəsi olur. Qanunvericiliyə əsasən, məsələn, əgər zaminin maaşı 800 manatdırsa, onun 50%-i zamində qalmalıdır. Zamin duran şəxsin ailə üzvləri məsuliyyət daşımır. Bankın onların gəlirindən pul tutmaq hüququ yoxdur. Borc ödənilənə qədər heç bir şəxs zaminlikdən imtina edə bilməz".

Hüquqşünas bildirib ki, zamin duran şəxs borcalanla birlikdə üzərinə eyni öhdəliyi götürür. Borclu öz öhdəliyini icra etmədiyi müddətdə zamin buna görə məsuliyyət daşıyır. Vətəndaş borcu ödəyə bilmədiyi halda, borc zamindən tələb edilir. "İcra haqqında" qanuna əsasən, tutmaların məbləği əməkhaqqının 50 faizinə qədər ola bilər.

Müsahibimiz qeyd edib ki, Mülki Məcəlləyə əsasən, zaminlik müqaviləsi yazılı formada bağlanmalıdır. Yazılı formaya riayət edilməməsi zaminlik müqaviləsinin etibarsızlığına səbəb olur.

Borclu öhdəliyi icra etmədikdə və ya lazımınca icra etmədikdə, zamin və borclu kreditor qarşısında birgə məsuliyyət daşıyırlar.

*Gülayə Mecid*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**




# Bakıda "Mövsüm Yarmarkası" təşkil olunacaq

***28 noyabrdan etibarən Kənd Təsərrüfatı Nazirliyinin tabeliyindəki "Aqrar Tədarük və Təchizat" ASC-nin təşkilatçılığı ilə paytaxtda həftəsonları "Mövsüm Yarmarkası" keçiriləcək.***

"Unikal" xəbər verir ki, yarmarkanın təşkilində əsas məqsəd yerli fermerlərin məhsullarının bazara çıxışını dəstəkləmək, onları alternativ satış nöqtələri ilə təmin etmək, eyni zamanda şəhər sakinlərinin təbii, yerli və sağlam kənd məhsullarına əlçatanlığını artırmaqdır.

Yarmarkada 30-a yaxın regiondan iştirak edəcək 55-ə yaxın fermer 120-ə qədər çeşiddə kənd təsərrüfatı və qida məhsullarının satışını həyata keçirəcək.

Burada satışa çıxarılacaq məhsulların keyfiyyətinə Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi nəzarət edəcək. Belə ki, məhsulların keyfiyyəti ilə bağlı hər hansı sualı yaranan vətəndaşlar yarmarkada fəaliyyət göstərən Səyyar Qida Laboratoriyasına yaxınlaşaraq məhsuldan analiz verə bilərlər.

Yarmarka həftəsonu 9:00-dan 19:00-dək Nərimanov rayonu, Fətəli xan Xoyski küçəsi, 5 ("Gənclik" metro stansiyasının yanı) ünvanında təşkil olunacaq.

Qeyd edək ki, "Mövsüm Yarmarkası"-nda fermerlər piştaxta, tərəzi və digər lazımi avadanlıqlarla ödənişsiz şəkildə təmin olunurlar.

# "Şamaxinka"dan Lökbatan dairəsinədək sürət həddi endirildi

***Yol hərəkəti təhlükəsizliyi səviyyəsinin artırılması məqsədilə Bakı Dairəvi-1 avtomobil yolunda sürət həddi endirilib.***




Bu barədə "Unikal"a Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə (AYNA) istinadən xəbər verir.

"Şamaxinka" adlanan yol sahəsindən Lökbatan dairəsinədək olan hissənin 14 kilometrlik kəsiyində yol hərəkəti təhlükəsizliyi səviyyəsinin artırılması məqsədilə sürət həddi 100 km/saatdan 90 km/saata endirilib. Qeyd olunan yol sahəsində müvafiq yol nişanları quraşdırılıb.

# Cinayətdə şübhəli bilinən 40 nəfər saxlanıldı

***Noyabrın 26-da ölkə ərazisində qeydə alınan 35, əvvəlki dövrlərdən bağlı qalan 4 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 324 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Narkotiklərlə əlaqəli 13, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 11 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 40 nəfər saxlanılıb.

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:38 PM Page 13





# Azərbaycanda hərbçi faciəli şəkildə öldü

***Goranboyda bədbəxt hadisə baş verib.***

"Unikal"ın məlumatına görə, hadisə rayonun Ağcakənd qəsəbəsində yerləşən N saylı hərbi hissədə qeydə alınıb.

Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin bölük komandiri, baş leytenant 1993-cü il təvəllüdlü Əzimli İsmayıl Elman oğlu hündür qayalıqdan yıxılıb. Baş leytenant aldığı xəsarətlərdən hadisə yerində həyatını itirib. Məlumata görə, hadisə 32 yaşlı hərbçinin xidmət etdiyi hərbi hissəsinin yaxınlığında olub.

Xatırladaq ki, baş leytenant 1993-cü il təvəllüdlü İsmayıl Əzimli bu gün doğulduğu Biləsuvar rayonunda torpağa tapşırılacaq.

Faktla bağlı Gəncə şəhər hərbi prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

***Tural Əhmədov***

# Kəlbəcərdə demoqrafik vəziyyətin statistikası

***Rayon əhalisinin sayı 2025-ci ilin yanvar-sentyabr aylarında 314 nəfər artaraq 01 oktyabr 2025-ci il vəziyyətinə 72 min 695 nəfərə çatmışdır. Əhalinin 51,2 faizini (37 min 220 nəfər) kişilər, 48,8 faizini (35 min 475 nəfər) qadınlar təşkil edir.***

Ərazisi 1,97 min kv.km olan rayon əhalisinin bir kvadrat kilometrə düşən sıxlığı 37 nəfər olmuşdur.

**Demoqrafik göstəricilərin dinamikası, nəfər**




2025-ci ilin yanvar-sentyabr aylarında 671 doğulan körpə qeydə alınmış və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 14,0-dən 12,4-ə düşmüşdür.

2025-ci ilin yanvar-sentyabr aylarında rayonda 348 ölüm halı qeydə alınmış və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici 6,4 olaraq dəyişməmişdir.

2025-ci ilin yanvar-sentyabr aylarında 374 nikah və 146 boşanma halları qeydə alınmış və 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 6,9 olaraq dəyişməmiş, boşanmaların sayı isə 2,8-dən 2,7-ə azalmışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında rayon üzrə miqrasiya saldosu mənfi 9-a bərabər olmuşdur. Ümumilikdə rayonda əhalinin ümumi artımı 314 nəfər olmuşdur.

***Kəlbəcər Rayon Statistika İdarəsi***

# Ali Məhkəmədə Vəkillər Kollegiyası ilə görüş keçirildi

***Azərbaycan Respublikasının Ali Məhkəməsində "Femida Dialoq Platforması" çərçivəsində Azərbaycan Respublikasının Vəkillər Kollegiyası ilə növbəti görüş baş tutub. Görüşdə vəkillərlə yanaşı, Ali Məhkəmənin hakimləri və Məhkəmə-Hüquq Şurasının üzvləri də iştirak ediblər.***



"Unikal" xəbər verir ki, açılış nitqi ilə çıxış edən Ali Məhkəmənin və Məhkəmə-Hüquq Şurasının sədri İnam Kərimov qonaqları salamlayaraq, bu görüşün məhkəmə hakimiyyəti üçün xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O, ikitərəfli müzakirələrin həm praktiki problemlərin aradan qaldırılmasına, həm də birgə əməkdaşlığa mühüm töhfə verəcəyini qeyd edib. Bildirilib ki, ölkəmizdə ədalət mühakiməsinin keyfiyyətinin yüksəldilməsi məqsədilə son illərdə həyata keçirilən islahatlar əsasən ədalət mühakiməsinə çatımlığın təmin edilməsi, məhkəmələrin iş yükünün optimallaşdırılması, hakim korpusunun peşəkar kadrlarla komplektləşdirilməsi, məhkəmə təcrübəsinin vahidliyinin təmin olunması, məhkəmələrin müstəqilliyinin möhkəmləndirilməsi və şəffaflığın artırılmasına yönəlib. Qeyd edilib ki, məhkəmə-hüquq sahəsində aparılan islahatlara vəkillər də öz töhfələrini verirlər. Həmçinin, vəkillərin qaldırdığı məsələlərin mütəmadi şəkildə analiz edildiyi və onların həlli istiqamətində işlərin davam etdirildiyi vurğulanıb.

Vəkillər Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Anar Bağırov çıxışında dialoqu yüksək qiymətləndirərək, bu müzakirələrin artıq silsilə xarakter aldığını bildirib. Görüşün ədalət mühakiməsində xüsusi rolu olan vəkillik institutu üçün qarşıda duran məsələlərin birgə həlli baxımından təqdirəlayiq bir çağırış olduğu qeyd edilib. İlk görüşdə qaldırılan məsələlərin əksəriyyətinin artıq həll edildiyi diqqətə çatdırılıb və vurğulanıb ki, hazırda ölkəmizdə məhkəmə sahəsində baş verən müsbət dəyişikliklər artıq hiss olunmaqdadır. Vəkillərin məhkəmə-hüquq sisteminin inkişafında önəmli bir tərəfdaş olduğu və bu əməkdaşlığın hüquqi islahatların uğuruna birbaşa təsir göstərəcəyini vurğulayıb. Həmçinin, görüşlər nəticəsində əldə edilən tövsiyələr və irəliləyişlərin ölkəmizdə hüquqi sistemin daha da təkmilləşməsinə xidmət edəcəyinə əminlik ifadə olunub.

Sonra Ali Məhkəmənin Mülki Kollegiyasının sədri, Məhkəmə-Hüquq Şurasının üzvü Sənan Hacıyev son illərdə məhkəmə sahəsində aparılan islahatlar, yeniliklər və qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verib.

Daha sonra vəkilləri maraqlandıran suallar cavablandırılıb, qarşılıqlı fikir mübadiləsi aparılıb, konkret mövzular üzrə rəy və təkliflər səsləndirilib.

# 2025-ci ilin 9 ayında Ağdaşın istehsal və xidmət sahələri üzrə əsas göstəriciləri belə olub

***2025-ci ilin yanvar-sentyabr aylarında Ağdaş rayonunda istehsal olunmuş məhsul və xidmətlərin 72,8 faizi istehsal sahələrinin, 27,2 faizi isə xidmət sahələrinin payına düşmüşdür.***

Rayonun əsas istehsal sahəsi olan kənd təsərrüfatı müəssisələrində, fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarında 177 milyon 213,4 min manatlıq məhsul istehsal olunmuşdur ki, onun da 82 milyon 331,0 min manatı və ya 46,5 faizi bitkiçiliyin, 94 milyon 882,4 min manatı və ya 53,5 faizi isə heyvandarlıq məhsullarının payına düşmüşdür. Əvvəlki ilin müvafiq dövrünə nisbətən kənd təsərrüfatı məhsulları istehsalı müqayisəli qiymətlərlə 0,8 faiz, o cümlədən bitkiçilik məhsulları üzrə 2,0 faiz azalmış, heyvandarlıq məhsulları üzrə isə 0,3 faiz artmışdır.

2025-ci ilin yanvar-sentyabr aylarında rayonun 16 sənaye müəssisəsi və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar, habelə ev təsərrüfatları tərəfindən 74 milyon 330,9 min manatlıq və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən sabit qiymətlərlə 1,7 faiz az sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir. Bu dövrdə sənaye məhsulunun 88,3 faizi emal, 9,7 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 1,9 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 0,1 faizi isə mədənçıxarma sektorlarında istehsal olunmuşdur. İstehsal olunmuş sənaye məhsulunun 8 milyon 483,9 min manatı və ya 11,4 faizi dövlət, 65 milyon 847,0 min manatı və ya 88,6 faizi isə qeyri-dövlət sektorunun payına düşmüşdür. İstehsal olunmuş sənaye məhsulunun 66 milyon 416,7 min manatı və ya 89,4 faizi hüquqi şəxslərin, 5 milyon 831,0 min manatı və ya 7,8 faizi ev təsərrüfatlarının, 2 milyon 83,2 min manatı və ya 2,8 faizi isə fərdi sahibkarların payına düşmüşdür.



2025-ci ilin yanvar-sentyabr aylarında tikinti sahəsi üzrə məhsul buraxılışı əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 76,4 faiz artaraq 5277,8 min manat olmuşdur. Bu dövrdə rayonda 63 milyon 433,6 min manatlıq tikinti-quraşdırma işləri yerinə yetirilmişdir ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,2 dəfə çoxdur. Mərkəzləşdirilmiş qaydada istifadə edilən investisiya hesabına görülmüş tikinti-quraşdırma işləri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə artmış, yerli imkanlar hesabına görülmüş tikinti-quraşdırma işləri isə 8,9 faiz azalmışdır. Tikinti-quraşdırma işlərinə yönəldilmiş vəsaitin 59 milyon 874,3 min manatı və ya 94,4 faizi dövlət, 3 milyon 559,3 min manatı və ya 5,6 faizi isə qeyri-dövlət mülkiyyətinin payına düşmüşdür.

Rayonda 2025-ci ilin yanvar-sentyabr aylarında ticarət; nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatı və informasiya və rabitə sahələrində 95 milyon 728,8 min manatlıq xidmətlər istehsal olunmuşdur. Bu göstərici əvvəlki ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 1,4 faiz çoxdur. İstehsal olunmuş xidmətlərin 90 milyon 448,9 min manatı və ya 94,5 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri sahəsində, 5 milyon 191,2 min manatı və ya 5,4 faizi nəqliyyat və anbar təsərrüfatı sahəsində, 88,7 min manatı və ya 0,1 faizi isə informasiya və rabitə sahəsində olmuşdur. Ticarət şəbəkələrində əhaliyə 282 milyon 652,9 min manatlıq istehlak malları satılmış və 2024-cü ilin müvafiq dövrünə nisbətən rayonda müqayisəli qiymətlərlə 1,9 faiz çox istehlak malları realizə olunmuşdur.

***Ağdaş Rayon Statistika İdarəsi***

45_27 IYUI-QARA.qxd 11/27/2025 11:38 PM Page 14



# Pensiyaların artımı gələn il davam edəcək

***2026-cı ildə Azərbaycanda orta aylıq pensiyanın 590 manata və yaşa görə orta aylıq pensiyanın 629 manata çatacağı gözlənilir.***



"Unikal" xəbər verir ki, bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.

Qeyd edilib ki, 2018-2025-ci illərdə orta aylıq pensiya 208 manatdan 540 manata, yaşa görə orta aylıq pensiya 234 manatdan 575 manata çatıb.

Bu da 2018-ci ilə nisbətən orta aylıq pensiyada 2,8 dəfə, yaşa görə orta aylıq pensiyada 2,7 dəfə artıma nail olunması deməkdir.

Eyni zamanda, gələn il pensiyaların maliyyələşdirilməsi üzrə ayrılan vəsait 7 mlrd. 993 mln. manata çatacaq ki, bu da 2018-ci ilə nisbətən həmin vəsaitdə 2,3 dəfə artımın olduğunu göstərir.

# MEDİA: "Azərbaycan TDT-yə üzv dövlətlərinin tədbirlərində iştirak etməkdə maraqlıdır"

***"Azərbaycan Türk Dövlətləri Təşkilatının üzv dövlətlərinin tədbirlərində iştirak etməkdə maraqlıdır".***

"Unikal" xəbər verir ki, bu sözləri Türk Dövlətləri Təşkilatının Media və informasiya üzrə işçi qrupunun 12-ci iclasında Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin Beynəlxalq əlaqələr və sənədlərlə iş departamentinin direktoru Rasim Bağırov deyib.

O qeyd edib ki, Türk Dövlətləri Təşkilatı (TDT) Azərbaycan üçün ən sıx əməkdaşlıq edilən qurumlardan biridir: "TDT çərçivəsində media sahəsində həyata keçirilən birgə layihələr, institusional əməkdaşlıq mexanizmləri və qarşılıqlı informasiya mübadiləsi türkdilli dövlətlər arasında vahid və dayanıqlı kommunikasiya məkanının formalaşmasına mühüm töhfə verir. İclasın gündəliyində yer alan məsələlər informasiya təhlükəsizliyinin möhkəmləndirilməsi, dezinformasiya ilə mübarizədə birgə səylərin koordinasiyası, strateji kommunikasiya bacarıqlarının inkişafı və media sahəsində ortaq təşəbbüslərin daha səmərəli icrası baxımından yeni imkanlar yaradır", - o bildirib.



# Vətəni canından artıq sevən şəhid Məhəmməd

***Biləsuvarın igid oğlu Məhəmməd Əmənov 44 günlük haqq savaşımızda sevdalandığı doğma Vətəninin yaşaması naminə böyük rəşadət, igidlik göstərərək ömrünün 24 ilində şəhidlik zirvəsinə ucalıb.***



Onun həyat yolu qısa olsa da, qazanılan parlaq qələbəmizin qəhrəmanlıq simvolu olaraq hər bir Azərbaycan vətəndaşı üçün şəhid adı əziz və müqəddəsdir. Eləcə dünya durduqca gələn nəsillər də onun torpağa, Vətənə olan sevgisindən nümunə götürəcəklər. Yaxınları, qohumları üçün ölümündən sonra layiq görüldüyü "Qarabağ" ordeni , "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları təsəlli olacaq.

Vətənin azadlığı uğrunda şəhadətə yüksələn, xalq tərəfindən qürurla anılan Məhəmməd İltizam oğlu Əmənov 18 yanvar 1996-cı ildə Biləsuvar rayonunun Bağbanlar kəndində anadan olub. Qəlbi Vətən eşqi ilə döyünən, Azərbaycanın müqəddəs parçası olan Qarabağımızın düşmən işğalında qalmasına heç cür barışa bilmədiyi üçün kənd orta məktəbi başa vurub ordu sıralarına yollanıb. Əsgərlik həyatına cəbhə bölgəsində başlayıb. Əsl vicdanlı oğul olaraq komandirlərin verdiyi bütün tapşırıqlarını böyük cəsarət və hünərlə yerinə yetirib. Həmçinin, Məhəmmədin Vətənə olan sevgisi, torpağa bağlılığı əsgər yoldaşlarına nümunə göstərilib. Həmişə yağıya qarşı döyüşə hazır olan Məhəmməd savaş meydanında əzəli yurd yerimiz Qarabağımızın azadlığı uğrunda şəhid olmağı belə özünə şərəf bilib.

Məhəmməd Vətənə olan müqəddəs oğuluq borcunu ləyaqətlə verib alnıaçıq, başıuca doğma kəndinə qayıdıb. Qaldı ki, Vətənin ağır günlərində evdə oturmağı vicdanına sığışdırmayıb. Öz yerini cəbhə bölgəsində görən qeyrətli Vətən oğlu ömrünü orduya bağlayıb. Belə ki, müvafiq kursu uğurla keçərək gizir rütbəsində xidmətini davam etdirməyə başlayıb. Üzərinə düşən tapşırıqlara ürəklə gedib, onların öhdəsindən bacarıqla gəlib, qatıldığı təlimlərdə bir qayda olaraq fərqlənib. Çox keçmir tankin "dilini" öyrənib, bu sahənin peşəkarı kimi yetişib. Və bütün bunlara görə dəfələrlə komandalıq tərəfindən fəxri fərmanlara layiq görülüb.

Məhəmmədin rəşadətli döyüş yolunun başlanğıcı 2016-ci ilin aprelində qoyulub. 4 gün çəkən bu savaşda igidliyi, qəhrəmanlığı dillərdə dastana dönüb. Müqəddəs amal uğrunda cəsarətlə vuruşub, qorxunu özünə yaxın buraxmayıb. Açdığı sərrast atəş zərbələri ilə xeyli sayda erməni dığasını məhv edib. Lələ təpənin bağrına zəfər bayrağını sancanların arasında olan Məhəmmədin qəlbi bütün Qarabağımızın azadlığı üçün döyünüb. Elə o möhtəşəm qələbə ilə əsgər və zabitlərimiz Azərbaycanın haqq uğrunda mübarizə aparmaq əzmini, əsl döyüş ruhunu bütün dünyaya göstəriblər. 4 ildən sonra hər bir qeyrətli azərbaycanlının arzuladığı gün gəlib çatıb.

Bəli, 2020-ci ilin 27 sentyabrında 44 günlük haqq savaşımız başlayanda tank komandiri çavuş Məhəmməd Vətən torpaqların azadlığı uğrunda ölüm-dirim döyüşlərinə qatılıb. Yağı düşmənin kabusuna çevrilən igid döyüşçü Goranboy istiqamətində, Suqovuşanın alınmasında, Tərtər bölgəsində və Ağdərədə müharibə meydanında böyük şücaət göstərib. Vətənə olan sonsuz sevgisini ermənilərə qan qusdurmaqla bildirib. Neçə-neçə ağır döyüşdən zəfərlə çıxan qəhrəmanımız 20 oktyabrda şəhadətə qovuşub.

Məhəmməd bu işıqlı dünyada qısa, amma şərəfli bir ömür yaşadı. O, Vətən, torpaq üçün canından keçdi, nəticədə müqəddəs bir məqama yüksələrək ölümsüzlük qazandı. Azərbaycan var olduqca, o, da xalqın qəlbində yaşayacaq...

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Goranboyda əmtəə bazarının göstəriciləri

***2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 277475,1 min manatlıq istehlak malları satılmış və 2024-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 0,6 faiz artmışdır.***

***Cədvəl 1***

| Göstəricinin adı | 2025-ci ilin yanvar-sentyabr aylarında | 2024-cü ilin yanvar-sentyabr aylarında | 2025-ci ilin yanvar-sentyabr aylarının 2024-cü ilin yanvar-sentyabr aylarına nisbəti, sabit qiymətlərlə, faizlə |
|---|---|---|---|
| Pərakəndə ticarət dövriyyəsi | 277475,1 | 263148,1 | 100,6 |

2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin ümumi həcminin 132145,9 min manatını və ya 47,6 faizini ərzaq məhsulları, içkilər və tütün məmulatları, 145329,2 min manatını və ya 52,4 faizini qeyri-ərzaq malları təşkil etmişdir.

**Cədvəl 2**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-sentyabr ayları | Ümumi dövriyyədə xüsusi çəkisi, faizlə |
|---|---|---|
| **Ticarət dövriyyəsinin həcmi - cəmi** | **277475,1** | **100,0** |
| *o cümlədən:* ərzaq məhsulları, içkilər və tütün məmulatları | 132145,9 | 47,6 |
| qeyri-ərzaq malları | 145329,2 | 52,4 |

2025-ci ilin yanvar-sentyabr aylarında topdansatış əmtəə dövriyyəsinin həcmi 15232,7 min manat və ya əvvəlki ilin müvafiq dövrünə nisbətən 15,4 faiz çox olmuşdur.

Pərakəndə ticarət dövriyyəsinin 96483,6 min manatı və yaxud 34,8 faizi hüquqi, 180991,5 min manatı və yaxud 65,2 faizi fiziki şəxslərin payına düşür.

**Cədvəl 3**

| Göstəricinin adı | 2025-ci ilin yanvar-sentyabr aylarında | 2024-cü ilin yanvar-sentyabr aylarında | 2024-cü ilin yanvar-sentyabr aylarına nisbəti, sabit qiymətlərlə, faizlə |
|---|---|---|---|
| **Pərakəndə ticarət dövriyyəsi - cəmi** | **277475,1** | **263148,1** | **100,6** |
| *o cümlədən:* hüquqi şəxslər | 96483,6 | 59662,7 | 154,2 |
| fiziki şəxslər | 180991,5 | 203485,4 | 84,9 |

**Qrafik 1**

**2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə ticarət dövriyyəsinin strukturu, faizlə**




2025-ci ilin yanvar-sentyabr aylarında pərakəndə və topdansatış ticarət şəbəkələrində əmtəə qalığı 34649,9 min manat təşkil etmiş, bunun da 11416,4 min manatı və ya 32,9 faizi hüquqi şəxslərin, 23233,5 min manatı və ya 67,1 faizi hüquqi şəxs yaratmadan sahibkarlıqla məşğul olan fiziki şəxslərin payına düşür.

***Goranboy rayon Statistika İdarəsi***

45_27 IYUI-QARA.qxd 11/27/2025 11:38 PM Page 15





## Lukaşenko: "ABŞ-nin sülh planının əsas məqamları razılaşdırılıb, top Ukrayna tərəfdədir"

***"Ukrayna ABŞ-ın təklif etdiyi sülh müqaviləsinə gedəcək".***

APA "Belta"ya istinadən xəbər verir ki, bu barədə Belarus Prezidenti Aleksandr Lukaşenko KTMT-nin sammitində bildirib.

"Bir daha vurğulayıram: biz sizin (Rusiyanın) Ukrayna ilə sülh müqaviləsi imzalamaq səylərinizi dəstəkləyirik. Dünən dedim ki, əgər amerikalılar özlərini diplomat və həqiqi hüquqşünas kimi aparsalar, bu müqavilə razılaşdırılacaq. Çünki əsas məqamlar artıq razılaşdırılıb.

İndi, necə deyərlər, top Ukrayna tərəfdədir. Düşünürəm ki, cəbhədə baş verən hadisələrlə əlaqədar Ukrayna bu sülh müqaviləsinə gedəcək. Əks təqdirdə, ölkəni tamamilə itirəcəklər", - Lukaşenko qeyd edib.

## Fransada iki rus casusu həbs edildi




***Fransa polisi ikisi Rusiya vətəndaşı olmaqla dörd nəfəri casusluqda şübhəli bilinərək həbs edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, saxlanılanlardan Anna ikili vətəndaşlığa malikdir. Fransız kəşfiyyat agentliyi DGSI yanvar ayından onu izləyirmiş.

Müstəntiqlər qadının kəşfiyyat məlumatlarının toplanması ilə məşğul olduğunu düşünür: o, Fransa şirkətlərinin rəhbərlərindən məlumat almağa cəhd edib və Ukraynaya silah tədarükünə qarşı çıxan SOS Donbass assosiasiyasını yaradıb. Fransa hakimiyyəti rəsmi olaraq casusların maraqları üçün çalışdığı ölkənin adını açıqlamayıb. İndi Annanı 45 il həbs və 600 min avro cərimə gözləyir.

## Ukrayna Belqorodda enerji obyektlərini vurdu

***Ukrayna Silahlı Qüvvələri (UAF) Belqorod vilayətində enerji obyektlərinə zərbələr endirib.***

"Unikal" Rusiya mətbuatına istinadən xəbər verir ki, bu barədə qubernator Vyaçeslav Qladko məlumat yayıb. Onun sözlərinə görə, Ukrayna SQ vilayətə çox sayda PUA hücumu həyata keçirib.

## Honq-Konqdakı yanğına görə saxlanılanlar var - 300-ə yaxın insan itkindir

***Honq-Konqun Tay Po rayonunda yaşayış kompleksində baş verən yanğın nəticəsində 55 nəfər ölüb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, daha 100 nəfər yaralanıb, 279 nəfər itkin düşüb.

Tay Po polisi bildirib ki, baş verən hadisəyə görə, binalarda təmir işləri aparan tikinti şirkətinin iki direktoru və bir məsləhətçi-mühəndisi saxlanılıb.

**Səhifəni hazırladı: Gülayə Məcid**

# İmran Xanla bağlı müəmma - Sabiq baş nazirin ölüm əmrini kim verib?

***Xəbər verdiyimiz kimi, Pakistanın keçmiş Baş naziri İmran Xanın müəmmalı şəkildə öldürüldüyü iddia olunub.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Pakistan hökuməti bir aydan çox müddətə İmran Xanla görüşlərə qadağa qoyub.

Belə ki, Xanın bacıları - Noreen Niazi, Aleema Xan və Dr. Uzma Xan üç həftədən çoxdur ki, qardaşları ilə görüşə icazə verilmədiyini iddia ediblər.

Əfqanıstan mediası onun Adiala həbsxanasında öldürüldüyünü yazıb. "Afganistan Times" qəzeti 72 yaşlı liderin həbsdə öldürüldüyünü və cəsədinin həbsxanadan çıxarıldığını iddia edib. Daha sonra Bəlucistanın Xarici İşlər Nazirliyi də Xanın Adiala həbsxanasında öldürüldüyünü bildirib. "X"də yayımlanan bir yazıda Pakistanın kəşfiyyat təşkilatı ISI və ordu rəisi, general Asim Munirin PTI sədrini öldürmək üçün sui-qəsd hazırladıqları iddia edilib.



Hələlik heç bir mötəbər mənbə tərəfindən əsassız və yoxlanılmamış iddialar təsdiqini tapmayıb. Üstəlik, Pakistan hökumət rəsmiləri "Afganistan Times" qəzetinin həsabatını təkzib ediblər.

İmran Xanın xəstəxanada olan köhnə fotoşəkili də internetə yayılıb, lakin bu fotolar saxta olduğu üçün rədd edilib. Bunun fonunda Aleema Xan qardaşının terrorçular üçün ayrılan "ölüm kamerasında" saxlanıldığını bildirib.

Pakistan hazırda həbs cəzası çəkən keçmiş baş nazir İmran Xanın ölümü ilə bağlı şayiələri təkzib edib.

"Unikal" xəbər verir ki, bu barədə Pakistanın Adiala həbsxanasının administrasiyasından məlumat verilib. Məlumatda qeyd edilib ki, İmran Xanın səhhəti ilə bağlı yayılan şayiələr "əsassızdır", o özü isə "hərtərəfli tibbi yardım" alır.

Qeyd edək ki, Pakistanın keçmiş Baş naziri İmran Xan korrupsiya ittihamı ilə 14 il həbs cəzasına məhkum edilib.

# Putin KTMT ölkələrinə Rusiya silahları almağı təklif etdi

***Rusiya Prezidenti Vladimir Putin KTMT qüvvələrini döyüşdə effektivliyini sübut etmiş Rusiya silahları ilə təchiz etmək üçün genişmiqyaslı proqrama başlamağı təklif edib.***

Bu barədə Putin Bişkekdə keçirilən KTMT sammitində çıxışında bildirib. O, Rusiyanın KTMT-nin yeni terrorizmə qarşı mübarizə strategiyasının hazırlanmasına başlamağı təklif etdiyini də vurğulayıb.

Putin deyib ki, KTMT-nin sammiti 11 noyabr 2026-cı ildə Moskvada keçiriləcək. O, Rusiyanın KTMT-yə sədrliyinin "çoxqütblü dünyada kollektiv təhlükəsizlik" devizi altında keçiriləcəyini qeyd edib.



# Nazir qəzaya uğrayan C-130 hərbi yük təyyarəsindən danışdı

***Milli Müdafiə Naziri Yaşar Güler Gürcüstan ərazisində qəzaya uğrayan Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus C-130 tipli hərbi yük təyyarəsi ilə bağlı açıqlama verib.***

"Unikal" Türkiyə mətbuatına istinadən xəbər verir ki, Gülerin sözlərinə görə, C-130 tipli hərbi yük təyyarəsi qəzaya uğraması gözlənilməz hadisədir:

"Bu təyyarələri 1957-ci ildən istifadə etməyə başlamışıq. Bu günə qədər heç bir qəza olmayıb. Dünyada 70 ölkə C-130-lardan istifadə edir. Təyyarələr 3 mərhələli baxımdan keçir və hər 69 aydan bir tam texniki baxışa salınır".



Qeyd edək ki, noyabrın 11-də Gürcüstan ərazisində Türkiyə Hərbi Hava Qüvvələrinə məxsus C-130 tipli hərbi təyyarəsi qəzaya uğrayıb. Təyyarənin qalıqları Xolaqiri monastırının yaxınlığındakı dik yamaclara səpələnib və yerli sakinlər tərəfindən aşkar edilib. Təyyarədə olan 20 nəfərin hamısı həlak olub. Onların nəşi tapılıb və Türkiyəyə göndərilib.

# "Amerikaya gələn hər kəs yoxlanılmalıdır" - Tramp

***ABŞ prezidenti Donald Tramp Milli Qvardiyanın əsgərlərinə hücumu "terror aktı" adlandırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Trampın sözlərinə görə, ABŞ Daxili Təhlükəsizlik Nazirliyi hücumçunun Amerikaya 2021-ci ildə Əfqanıstandan gəlib.

"Bu, bütün xalqımıza qarşı cinayət idi. Bu, insanlığa qarşı cinayət idi", - Ağ Ev lideri ifadə edib.

Tramp həmçinin deyib ki, ABŞ rəsmiləri əvvəlki Co Bayden administrasiyası dövründə Əfqanıstandan ölkəyə daxil olan hər kəsi yoxlamalıdır.

Amerika lideri həmçinin Pentaqonun katibi Pit Heqsetə Vaşinqtona əlavə 500 Milli Qvardiyanın şəxsi heyətini yerləşdirməyi tapşırdığını təsdiqləyib.

"Biz Amerikanı yenidən tamamilə təhlükəsiz edəcəyik", - o deyib və kəşfiyyat orqanlarına təşəkkür edib.

## "Putinə etibar etmək olmaz" - NATO-nun baş katibi

***NATO-nun baş katibi Mark Rutte Rusiya lideri Vladimir Putinin etibarsızlığına istinad edərək, Ukraynada potensial sülh sazişi ilə bağlı ehtiyatlı olmağa çağırıb.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, onun sözlərinə görə, sövdələşmə elə bağlanmalıdır ki, ona əməl olunması Rusiyanın və onun prezidentinin maraqlarına uyğun olsun.

Rutte əlavə edib ki, Vladimir Putinə etibar etmək olmaz.

45_27 IYUl-QARA.qxd 11/27/2025 11:38 PM Page 16



# AFFA-dan bölgə klubunun futbolçusuna cəza

***AFFA Intizam Komitəsinin iclası keçirilib.***

"Unikal" PFL-in saytına istinadən xəbər verir ki, iclasda Azərbaycan 2-ci liqasının 10-cu turundakı qayda pozuntuları ilə bağlı qərarlar qəbul olunub.

"Quba" - "Ağstafa Gəncləri" oyununun 21-ci dəqiqəsində "Quba"nın 5 nömrəli futbolçusu Ramin Məhərrəmov rəqibi aşkar qol imkanından məhrum etdiyinə görə birbaşa qırmızı vərəqə aldığı üçün 1 oyun oyuna buraxılmayacaq. Onun klubu isə "100 manat cərimələnib.




Həmin oyunun 61-ci dəqiqəsində "Quba" azarkeşləri tərəfindən pirotexniki vasitədən istifadə edildiyinə görə bölgə təmsilçisi 300 manat cərimə edilib.

Bu görüşdə "Ağstafa Gəncləri"ndə 6 nəfər sarı vərəqə aldığı üçünklub 70 manat cərimələnib.

"Göygöl" - "Şəmkir" oyununa Təcili Tibbi Yardım avtomobili gec gəldiyinə görə matç gec başladığı üçün "Göygöl" 200 manat cərimə edilib.

"Kür-Araz" - "Xankəndi" oyununda "Kür-Araz" komandası matçın ilkin protokolunu elektron sistemdə gec təsdiq etdiyinə görə "Kür-Araz" 150 manat cərimələnib.

# NBA-da daha doqquz oyun keçirildi

***ABŞ-ın Milli Basketbol Assosiasiyasında (NBA) daha doqquz qarşılaşma keçirilib.***

"Unikal" xəbər verir ki, "Boston Seltiks" "Detroit Pistons"u 117:114 hesabı ilə məğlub edib.

"Nyu York Niks" "Şarlotta Hornets"i (129:101), "Toronto Reptors" "İndiana Peysers"i (97:95), "Mayami Hit" "Miluoki Baks"ı (106:103) üstələyib.

Digər matçlarda isə aşağıdakı nəticələr qeydə alınıb:

"Oklahoma Siti Tander" - "Minnesota Timbervulvz" - 113:105

"Nyu Orleans Pelikans" - Memfis Qrizzlis" - 128:133

"Qolden Steyt Uarriors" - Hyuston Rokets - 100:104

"Portlünd Treyl Bleyzers" - "Sen Antonio Spörs" - 102:115

"Sakramento Kinqs" - "Finiks Sanz" - 100:112.




# "Fənərbaxça" - "Qalatasaray" derbisinin baş hakimi bəlli oldu

***Türkiyə Super Liqasının 14-cü həftəsində keçiriləcək "Fənərbaxça" - "Qalatasaray" derbisinin hakimi bəlli olub.***

"Unikal" xəbər verir ki, bu barədə Türkiyə Futbol Federasiyası (TFF) məlumat yayıb.

İstanbul derbisini Yasin Kol idarə



edəcək.

Ona Abdullah Bora Özkara və Bahtiyar Birinci kömək edəcək. Dördüncü hakim funksiyasını isə Ali Yılmaz yerinə yetirəcək.

Qeyd edək ki, "Fənərbaxça"-"Qalatasaray" derbisi dekabrın 1-də baş tutacaq.

# Daha iki boksçumuz Avropa çempionatında yarımfinala yüksəldi

***Macarıstanın paytaxtı Budapeştdə boks üzrə U-23 Avropa çempionatında 1/4 final mərhələsinə yekun vurulub.***

"Unikal" xəbər verir ki, döyüşlərin yekununa əsasən Azərbaycan millisinin daha 2 idmançısı yarımfinala yüksəlib.

Sübhan Mamedov (50 kq) Salvator Attrattivonu (İtaliya) hər 3 raundda məğlub edib - 5:0 (30:27, 30:27, 30:27, 30:27, 30:27). O, yarımfinalda Luis Runi (İrlandiya) ilə üz-üzə gələcək.

Səbuhi Əlizadə (+90 kq) də 1/4 final döyüşünü xeyrinə bitirib. Gəncə boks məktəbinin yetirməsi İliya Zinkovskiyə (Ukrayna) ikinci raundda tam üstünlüklə qalib gəlib. Boksçumuz finala gedən yolda Marko Perkoviçi (Xorvatiya) sınağa çəkəcək.

Beləliklə, Avropa çempionatında yarımfinala yüksələn idmançılarımızın sayı 3-ə yüksəlib. Daha öncə Tağı Nəsibov (60 kq) da bu hüquqa yiyələnib.

Qeyd edək ki, yarımfinala vəsiqə qazanan boksçularımız özləri üçün azı bürünc medalı da təmin ediblər.



Bu mərhələnin görüşləri noyabrın 28-də olacaq.

# Belaruslu futbolçu Azərbaycan çempionatında çıxış edə bilər

***Belarus millisinin və "Torpedo" (Jodino) komandasının futbolçusu Pavel Sedko karyerasını Azərbaycanda davam etdirə bilər.***

"Unikal" xəbər verir ki, bu barədə yarımmüdafiəçinin agenti Valeri Rusetski məlumat verib. Lakin futbolçunun xidmətində maraqlı olan



klubun adı açıqlanmayıb.

Menecerin sözlərinə görə, oyunçunu Azərbaycanla yanaşı, Qazaxıstan və Serbiya komandaları da transfer etmək istəyir.

Pavel Sedko Belarus yığmasının heyətində 14 oyunda 1 qolla yadda qalıb.



# Mbappe ÇL-nin bombardiridir

***UEFA Çempionlar Liqasının Liqa mərhələsinin 5-ci turundan sonra bombardirlər siyahısında lider dəyişib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, "Olimpiakos"la (Yunanıstan) səfər matçında (4:3) komandasının 4 qolunun hamısının müəllifi olan "Real"ın hücumçusu Kilian Mbappe birinci yerə yüksəlib. Hazırda fransalının ehtiyatında 9 qol var.

"Qalatasaray"lı Viktor Osimhen 6 qolla 2-ci, Erlinq Halaand ("Mançester Siti") və Harri Keyn ("Bavariya") isə 5 qolla 3-4-cü yerləri bölüşdürür.

"Qarabağ"ın futnolçusu Leandro Andrade isə 3 qola 11-ci yeri tutur. Qeyd edək ki, Leandro ilə yanaşı daha 14 futbolçu 3 dəfə rəqib qapılarına yol tapıb.

# "Bavariya" "Arsenal"a, "Liverpul" PSV-yə uduzdu

***UEFA Çempionlar Liqasının əsas mərhələsində V tura yekun vurulub.***



"Unikal" xəbər verir ki, ikinci oyun günündə də 9 görüş keçirilib. İngiltərə təmsilçilərindən "Liverpul" evdə Niderlandın PSV, "Tottenhem" isə səfərdə Fransa təmsilçisi PSJ komandasına məğlub olub. İngiltərə komandalarından yalnız "Arsenal" rəqibi "Bavariya"dan üstün olmağı bacarıb. "Real Madrid" "Olimpiakos" səfərindən üç xalla dönüb.

**Liqa mərhələsi V tur:**

**26 noyabr**

21:45. "Pafos" (Kipr) 2-2 "Monako" (Fransa)

21:45. "Kopenhagen" (Danimarka) 3-2 "Kayrat" (Qazaxıstan)

**27 noyabr**

00:00. "Liverpu" (İngiltərə) 1-4 PSV (Niderland)

00:00. PSJ (Fransa) 5-3 "Tottenhem" (İngiltərə)

00:00. "Olimpiakos" (Yunanıstan) 3-4 "Real Madrid" (İspaniya)

00:00. "Ayntraxt" (Almaniya) 0-3 "Atalanta" (İtaliya)

00:00. "Arsenal" (İngiltərə) 3-1 "Bavariya" (Almaniya)

00:00. "Atletiko" (İspaniya) 2-1 "İnter" (İtaliya)

00:00. "Sportinq" (Portuqaliya) 3-0 "Brügge" (Belçika).